HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

VERGİLƏR NAZİRLİYİ AZƏRBAYCAN

№ 39 (933) ▪ 17 oktyabr 2018 | www.vergiler.az | Qiyməti: 60 qəp.


# Azərbaycan Prezidenti ölkənin şimal və cənub bölgələrində səfərdə olub

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 11-də Quba rayonuna səfər çərçivəsində əvvəlcə Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olublar, Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq «Yeni Yaşma» Külək Elektrik Parkının, eləcə də İdrisqışlaq-Qasımqışlaq-Xaspolad-Zərqava-Aspərəsti-Çayqışlaq avtomobil yolunun açılışında iştirak ediblər.**

Sonra Quba rayonuna gələn Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada Kənd Təsərrüfatı Nazirliyinin Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun əsaslı təmirdən sonra fəaliyyəti və institutun binasında yaradılan şəraitlə tanış olublar.

Quba Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu sağlamlıq ocağının rəmzi açılışını bildirən lenti kəsiblər. Dövlətimizin başçısı səhiyyə ocağının kollektivi ilə görüşüb və onların qarşısında çıxış edib. Prezident İlham Əliyev bildirib ki, bu gün Azərbaycanın bütün bölgələrində, hər bir rayonunda müasir tibb müəssisəsi yaradılıb və yaradılır. Bu il altı şəhərdə yeni böyük xəstəxananın istifadəyə verilməsi nəzərdə tutulurdu. Artıq ikinci xəstəxana bu gün istifadəyə verilir. Bundan əvvəl Naftalan şəhər xəstəxanası istifadəyə verilib. İlin sonuna qədər dörd xəstəxananın tikintisinin başa çatması nəzərdə tutulur. Gələn il dörd şəhər xəstəxanası istifadəyə veriləcək, yaxud tikintisi davam etdiriləcək. Beləliklə, Azərbaycanda bir şəhər də qalmayacaq ki, orada ən müasir xəstəxana olmasın. Dövlətimizin başçısı qeyd edib ki, son 15 il ərzində Azərbaycanda 600-dən çox yeni tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib: «Bu, bizim insanların sağlamlığına verdiyimiz böyük töhfəmizdir. İnsanların sağlamlığı ən vacib məsələdir. Bu gün statistikaya, Dünya Səhiyyə Təşkilatının hesablamalarında Azərbaycanın artan reytinqinə baxdıqda görürük ki, bu sahədə çox yaxşı nəticələr var. Azərbaycanda insanların ömrünün uzunluğu artır, körpə-ana ölümü azalır. Əlbəttə ki, bu istiqamətdə daha da böyük addımlar atılacaq».



Oktyabrın 11-də Quba şəhərində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan «ABAD» (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin «ABAD Factory» İstehsalat Kompleksinin açılışı olub. Açılış mərasimində iştirak edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə yaradılan şəraitlə tanış olublar. Bildirilib ki, əsaslı şəkildə təmir-bərpa işləri aparılan və müasir avadanlıqlarla təchiz edilən kompleksdə birdəfəyə 140 kiloqram quru meyvə, istehsal gücü saatda 110 kiloqram olan qənnadı məmulatı və 1200 banka olan kompot, gündəlik min litr süd və 600 kiloqram ət məhsulları istehsal edən 5 sahə fəaliyyət göstərəcək. Kompleksin hər istehsal sahəsində növbəlilik prinsipi əsasında 30 nəfərdən ibarət iki «ABAD»çı ailə çalışacaq. Bununla da 30-dək vətəndaş «ABAD» publik hüquqi şəxsin əməkdaşı kimi işlə təmin ediləcək. Bundan əlavə, istehsal prosesində ABAD-çıları xammalla təchiz edəcək yeni ABAD-çıların prosesə qoşulması da nəzərdə tutulur ki, bu da, ümumilikdə, regionda yaşayan 70-80 ailənin məşğulluq və əlavə gəlir əldə etməsinə şərait yaradacaq.

Həmin gün «Qubaekoaqrar» Məhdud Məsuliyyətli Cəmiyyətinin kənd təsərrüfatı mallarının istehsalı zavodu istifadəyə verilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zavodun açılışında iştirak ediblər. Dövlətimizin başçısı zavodu işə salıb. Bildirilib ki, müəssisə sutkada 4 ton fındıq və 2 ton quru meyvə istehsalı gücünə malikdir. Zavodda meyvələrin qurudulması, fındığın qovrulması və qablaşdırılması, alma çipsi istehsalı xətləri quraşdırılıb. Əhalidən tədarük edilmiş meyvələr, ilk növbədə, çeşidlənir, yuyulur, içlikdən təmizlənir, dilimlənir və xüsusi qaydada qablaşdırılaraq qurudulması üçün sobaya yerləşdirilir. Sobada hər bir meyvə növünün xüsusiyyətləri nəzərə alınaraq onlar üçün proqramlaşdırılmış xüsusi rejimdə qurutma prosesi həyata keçirilir. Müəssisədə tələbata uyğun olaraq əsasən alma, armud, gavalı, ərik, üzüm və alça quruları, həmçinin alma çipsi istehsal olunaraq müxtəlif çəkilərdə paketlənir. Meyvə quruları sənaye üsulu ilə istehsal olunduğu üçün dadına, əmtəə görünüşünə və yüksək səviyyədə qablaşdırılmasına görə fərqlənir.

Fındığın emalı xəttində isə məhsul ilkin olaraq qurudulur, qabıqdan təmizlənir, çeşidlənir və sonra sobada xüsusi rejimdə qovrulur. Qovrulmuş fındığın soyudulduqdan sonra müxtəlif çəkilərdə vakuum paketlənməsi həyata keçirilir. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, «Made in Azerbaijan» brendi adı altında xarici bazarlara, xüsusilə Rusiya və ərəb ölkələrinə ixracı nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Quba şəhərində 100 yerlik «Günəş» körpələr evi-uşaq bağçasının açılışında iştirak ediblər, Gənclər Parkında yaradılan şəraitlə tanış olublar.

---

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran rayonuna səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Lənkəran şəhərindəki Heydər Əliyev xatirə parkında ulu öndərin yeni ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoyublar.

Səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran İstisu və Sağlamlıq Mərkəzinin təqdimat mərasimində iştirak ediblər, burada fəaliyyət göstərən oteldəki nömrələrdə yaradılan şərait və istisu vannaları ilə tanış olublar. Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və müəssisənin kollektivi ilə görüşüblər. Daha sonra dövlətimizin başçısı və birinci xanım Lənkəran Olimpiya İdman Kompleksinin, Hirkan-Daştatük-Biləsər avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak ediblər. Prezident İlham Əliyevə Astara rayonunun Ojakəran-Tüləküvan-Təngərüd avtomobil yolunun tikintisi barədə də məlumat verilib. Dövlətimizin başçısı Astara rayonunun Taxtanəkəran-Miki, Taxtanəkəran-



> “Azərbaycanın bütün bölgələrində sosial-iqtisadi layihələr yüksək keyfiyyətlə icra olunur, insanların rifahı günü-gündən daha da yaxşılaşır

Toradi kəndlərarası avtomobil yollarının tikintisi ilə də maraqlanıb. Astaraçay üzərində tikiləcək körpü və körpüyə qədər olan yolun planı barədə də məlumat verilib. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Lənkəran filialının açılışında iştirak ediblər. Dövlətimizin başçısı və xanımı müəssisənin rəmzi açılışını bildirən lenti kəsiblər, müəssisə ilə tanışlıqdan sonra burada çalışan kollektivlə görüşüb söhbət ediblər.

Lənkərana səfərini başa çatdıran Prezident İlham Əliyev həmin gün Astara rayonuna gəlib. Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Prezident İlham Əliyev «Astara şəhərinin içməli su təchizatı sistemləri» layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib, su təchizatı və kanalizasiya sistemlərinin rəmzi açılışını bildirən düyməni işə salıb. Sonra Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb söhbət edib.

Prezident İlham Əliyev bildirib ki, gələcəkdə Bakı-Astara avtomobil yolunun İran sərhədinə çatdırılması layihəsi icra olunacaq. Eyni zamanda, burada kommunal evlərdə yaşayan insanlar üçün 48 mənzildən ibarət yeni yaşayış binası tikiləcək: «Gələn ilin investisiya proqramında yeni kənd yollarının layihəsi nəzərdə tutulur. Hesab edirəm ki, bu məsələlər həll ediləndən sonra biz əsas infrastruktur layihələrini yerinə yetirmiş oluruq. Gələcəkdə, sadəcə olaraq, bu imkanlardan istifadə edilməlidir ki, rayonun potensialı daha da böyüsün. Sahibkarlığın, qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, burada yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulur. Ənənəvi kənd təsərrüfatı sahələri daha da sürətlə inkişaf etməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür, dövlət tərəfindən kifayət qədər böyük diqqət göstərilir».

Səfər çərçivəsində dövlətimizin başçısı Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində yaradılan şəraitlə tanış olub, elektromobillə kompleksin ərazisini gəzib.

Astaraya səfərini başa vuran Prezident İlham Əliyev oktyabrın 15-də Lerik rayonuna gəlib. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Lerik şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyub. Prezident İlham Əliyevə son dövrlərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr barədə məlumat verilib. Lerik rayonunun Piran-Hamarat-Vijaker avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edən dövlətimizin başçısına Noda-Şingədulan-Xanagah avtomobil yolunun tikintisi ilə də maraqlanıb.

Sonra Prezident İlham Əliyev «Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması» layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Daha sonra dövlətimizin başçısı Lerik rayonunda gücü 16,5 MVt olan elektrik stansiyasının istismara verilməsi mərasimində və Bayraq Muzeyinin açılışında iştirak edib.

Sonra Prezident İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunmuş 100 yerlik Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak edib, bağçanın rəmzi açılışını bildirən lenti kəsib. Uşaqların sosial müdafiəsinin gücləndirilməsi, onların sağlam və xoşbəxt böyüməsi bu gün dövlətimizin həyata keçirdiyi siyasətdə mühüm yer tutur. Respublikamızın bütün bölgələrində yeni körpələr evi-uşaq bağçalarının inşası, onların müasir avadanlıqla təchiz edilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən böyük dəstək verilir. Bu istiqamətdə həyata keçirilən Dövlət proqramları ilə yanaşı, Heydər Əliyev Fondu da bu sahəyə xüsusi töhfə verir. Fondun məktəbəqədər tərbiyə müəssisələrinin yenidən qurulması ilə bağlı həyata keçirdiyi layihələr bu baxımdan çox mühüm rol oynayır. Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı» proqramı uşaqların təlim-tərbiyəsinin, onların bilikli və savadlı yetişməsinin Fondun fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etdiyini bir daha sübut edir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş bağçalardan biri də Lerik şəhər 2 saylı körpələr evi-uşaq bağçasıdır. Bu cür gözəl və hərtərəfli şəraiti olan körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bir daha sübut edir ki, dövlətimizlə bərabər, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da gələcəyimiz olan uşaqlarla bağlı bütün məsələlərə xüsusi həssaslıqla yanaşır, onların sağlam və xoşbəxt böyüməsi üçün əlindən gələni əsirgəmir. Müasir görkəmi ilə seçilən belə müəssisələr həm də yerləşdiyi ərazinin gözəlliyini daha da artırır.

Bildirilib ki, bu uşaq müəssisəsinin inşasına 2015-ci ilin mayında başlanılıb, 2018-ci ilin mayında yekunlaşıb. İkimərtəbəli binada qrup, yataq, yemək otaqları və xidməti otaqlar var. Burada, eyni zamanda, musiqi və gimnastika, həmçinin kompüter otağı da balacaların ixtiyarına verilib. Müxtəlif qrupların fəaliyyət göstərəcəyi bağçada uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq, onların istedadlarını üzə çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Otaqların hamısı zəruri avadanlıq və əyani vasitələrlə təchiz olunub. Körpələr evi-uşaq bağçasının ərazisində balacaların əylənməsi üçün meydança yaradılıb. Müəssisədə 22 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulub.

Bütün bunlar bir daha da göstərir ki, Heydər Əliyev Fondunun təhsillə bağlı fəaliyyət dairəsində məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulmasına, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunmasına geniş yer ayrılıb. Ümumilikdə, ölkədə son illərdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi və onların xoşbəxt böyümələri naminə olduqca mühüm layihələr icra edilib.

---


Vergilər naziri Şəmkirdə vətəndaşları qəbul edib — səh. 2

Naxçıvan MR Vergilər Nazirliyi bu ilin 9 ayını vergi borcu olmadan başa vurub — səh. 2

Sahibkarlar da dəyişiklikləri səbrsizliklə gözləyirlər — səh. 3

İqtisadi sahədə baş verən dəyişikliklər vergi sisteminin təkmilləşdirilməsinə ehtiyac yaradır — səh. 5

## M.Ç.Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının vergilər naziri Mikayıl Çingiz oğlu Cabbarova 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 10 oktyabr 2018-ci il.

# Vergilər naziri Şəmkirdə vətəndaşları qəbul edib

Oktyabrın 15-də vergilər naziri Mikayıl Cabbarov Şəmkir şəhərində 14 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib. Qəbulda Gəncə şəhəri, Şəmkir, Naftalan, Goranboy, Samux, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Ağstafa, Qazax və Kəlbəcər rayon sakinləri iştirak ediblər.



Qəbul zamanı vətəndaşlar, əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işlə təminat, kənd təsərrüfatı məhsullarının ixracı və vergi inzibatçılığı sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, əksər məsələlər yerindəcə həllini tapıb, bir sıra müraciətlərlə bağlı nazirliyin struktur bölmələrinə tapşırıqlar verilib.

# Vergi sistemində aparılan islahatlar öz bəhrəsini verir

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vergi sistemində aparılan islahatların bu sahədə müsbət dəyişikliklərə səbəb olduğunu bildirib. Qeyd edib ki, qarşıda duran əsas məsələlərdən biri vergidən yayınma hallarının qarşısının alınmasıdır: «Bu gün belə hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm də kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkar kimi öz fəaliyyətlərini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək».

Çıxışında qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımların atıldığına, vergilərin toplanmasında müsbət nəticələrə nail olunduğuna və digər mühüm məsələlərə toxunan dövlət başçısı təsərrüfat subyektlərində uçot sisteminin şəffaflaşdırılmasının əhəmiyyətli məsələlərdən biri olduğunu vurğulayıb.

### Sahibkarlar işlərini şəffaf qurmalı, vergi öhdəliklərini yerinə yetirməlidirlər

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov qeyd edib ki, dövlət başçısının verdiyi mesajlar vergi sistemində sahibkara yanaşmanın dəyişdiyini, yeniliklərin tətbiq olunduğunu və islahatlar kursunun davam etdirildiyini təsdiqlədi: ni təmin edir. Ötən doqquz aya nəzər saldıqda, aparılan islahatların ən mühüm nəticələrindən biri kimi, vergi ödənişi potensialının artdığını müşahidə etmək olar. Xüsusilə də qeyri-neft sektorunda vergi daxilolmalarının həcminin artması vergi orqanlarının təşviqedici siyasəti sayəsində mümkün olub».

A.Hüseynov qeyd edib ki, hazırda Vergi Məcəlləsinə nəzərdə tutulan dəyişikliklər biznes fəaliyyətinin daha da genişləndirilməsi, fiskal yükün aşağı salınması, qeyri-qanuni sahibkarlığın və məşğulluğun qarşısının alınması, şəffaflığın təmin edilməsi, investisiya mühitinin yaxşılaşdırılması, vergilərin optimallaşdırılması və vergi bazasının artırılması üçün əlverişli zəmin yaradır.

Atılan addımlara adekvat olaraq sahibkarlar da işlərini şəffaflıq prinsipləri əsasında qurmalı, vergilərini düzgün hesablayıb dövlət büdcəsinə tam həcmdə və vaxtında ödəməlidirlər: «Hazırda bir sıra sahələrdə hələ də uçotsuz fəaliyyət, real dövriyyənin gizlədilməsi və vergidən yayınma cəhdlərinə rast gəlinir. Vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması qarşıda duran ən mühüm məsələlərdəndir. Vergi ödəyiciləri dövriyyələrini düzgün göstərməli və sənədləşdirmə işlərini qaydasına salmalıdırlar».

### Bəzi fəaliyyət sahələrində uçota münasibət qənaətbəxş deyil

Audit üzrə mütəxəssis Mehdi Babayev hesab edir ki, dövlət başçısı ən mühüm məsələlərdən biri olan təsərrüfat subyektlərində uçot sisteminin düzgün qurulmasına dəvət etməklə vergi orqanlarının bu istiqamətdə apardığı tədbirlərin əsas aktual məsələlərdən biri olduğuna diqqət çəkib. Mütəxəssis hesab edir ki, uçotun düzgün qurulmaması iqtisadi inkişafın ahəngini ləngitdiyindən, dövlət başçısı dərinləşdirilən islahatlar çərçivəsində sahibkarların öz öhdəliklərini yerinə yetirməsini vacib hesab edir: «Hazırda ölkəmizdə qanunvericilik baxımından mühasibat, vergi və digər sahələr üzrə uçotun aparılmasını təmin edən normativ aktlar kifayət qədərdir və demək olar ki, tam təmin edilib. Lakin uçot sahəsində hüquqi bazanın olmasına baxmayaraq, bəzi fəaliyyət sahələrində, əsasən də kiçik sahibkarlıq subyektləri kateqoriyasına aid edilən və sadələşdirilmiş vergi mükəlləfiyyəti olan vergi ödəyicilərində uçota olan münasibət qənaətbəxş deyildir. Elə müəssisələr var ki, il ərzində, sadəcə olaraq, sənədlər toplayır və yalnız ilin sonunda uçot qurur, bununla öz öhdəliyini bitmiş hesab edir. Məsələyə bütövlükdə baxsaq, vergi ödəyicisinin məqsədinin vergidən yayınmaq yox, qazanc barədə niyyətinin düzgün olmadığını görərik. Əsas məsələ belə niyyəti formalaşdıran halları aradan qaldırmaqdır».

M.Babayevin sözlərinə görə, uçotla bağlı problemlər, əsasən, bu amillərlə bağlıdır:

- sahibkarın apardığı uçotun və hazırladığı hesabatların yalnız vergi, DSMF və statistika orqanlarının tələblərinə köklənməsi;
- maliyyə uçotu bilgilərinin azlığı və bu sahədə maarifləndirmə və təhsil-təlim işlərinin yetərincə olmaması;
- sənədləşmə yükünün (ciddi hesabat blanklarının tətbiqi sahəsinin) çoxluğu;
- bəzi fəaliyyət sahələrində (kənd təsərrüfatı məhsullarının istehsalı və s.) tətbiq edilən vergi güzəşt və azadolmalarının uçotun əhəmiyyətliliyinə biganəliyi «təşviq» etməsi;
- sadələşdirilmiş vergi dərəcəsinin və yükünün real iqtisadi fəaliyyətlərə uyğun olmaması və sahibkarların dövriyyələrini paylaşdırma məqsədilə çoxmüəssisəliliyə meyillənməsi.

Bəzi təsərrüfat subyektlərinin rəhbərliyi tərəfindən təsisçiləri və səhmdarları aldatma meyilləri, biznesə yanaşmanın mükəmməl olmaması da həmin sahədə nöqsanlara yol açır: «Qeyd edilənlərin fonunda sahibkarın təmiz uçot qurmaq haqqında marağı formalaşmaya bilər. Lakin bütün bunlar və digər mənfi hallar ən qısa zamanda belə həll edilsə də, neqativ «ənənələrə» bulaşmış sahibkar şəffaflıq mədəniyyətini tez bir zamanda özündə formalaşdıra bilməyəcəkdir. Çünki bu mərhələdə sahibkar sıxıntı yaşaya, neqativ vərdişləri özündən uzaqlaşdırmaq üçün zamana ehtiyacı yarana bilər. Sahibkarı tam qınamaq düzgün deyildir. Onlar günümüzün güzgüsüdür və onların da dövlət dəstəyinə ehtiyacları vardır».

> “Vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması qarşıda duran ən mühüm məsələlərdəndir

«Vergi sahəsində başlanmış yeni islahatlar indiyə qədər yaranmış problemlərin köklü həllinə, vergi inzibatçılığının ən müasir formada təşkilinə imkan verir. Sahibkarlara münasibətin ən müasir xidmətlər səviyyəsində sağlam qurulması, vergi ödəyicisi ilə vergi orqanı arasında inam və etimadın yüksəldilməsi üçün yeni texnologiyalar tətbiq olunur. Vergi inzibatçılığının təkmilləşdirilməsi, yoxlama və vergi nəzarəti sahələrində də müasir innovativ meyarların tətbiqi baxımından yeni mərhələ başlanıb. Yoxlamaların sayının azaldılması, prosesin təkmilləşdirilməsi, yoxlamanın məsafədən aparılması istiqamətində baş verən dəyişikliklər də vergi sisteminin şəffaflığını, biznes üçün səmərəliliyini və rəqabətliliyi-

Hökumət tərəfindən aparılan islahatlara və ortaya qoyulan möhkəm iradəyə sahibkarın güvənməsi vacib məsələdir. Sahibkar yaratdığı müssisənin dövriyyəsindən özünə lazım olan pulu yalnız qanunun yol verdiyi formada çıxara bilər. Bu yoldan kənar qazanc hüquqi şəxs üçün məsuliyyət yaradır.

**Elbrus CƏFƏRLİ**

# Vergi sisteminin effektivliyi artırılır

Prezident İlham Əliyevin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə «2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı» təsdiq edilmişdir. Strateji məqsədi vətəndaş, biznes subyektləri və dövlət strukturları arasında nağdsız ödəniş mühitinin genişləndirilməsi, nağd dövriyyənin həcminin minimuma endirilməsi və nəticədə bank sektorunun maliyyə resursları bazasının gücləndirilməsi olan sənəddə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ölkə iqtisadiyyatında şəffaflığı artıracaq, bank sektorunu sağlamlaşdıracaq və vergidən yayınma hallarının aradan qalxmasına şərait yaradacaq.

Sənəddə xüsusi yer tutan məsələlərdən biri vergi sisteminin effektivliyinin artırılmasıdır. Qeyd edilir ki, iqtisadi subyektləri nağd ödənişlərə həvəsləndirən səbəblərdən biri iqtisadiyyatda vergidən yayınma motivlərinin hələ də qalmasıdır. Ona görə də ilk növbədə vergidən yayınma hallarının vergiyə cəlb olunma stimulları ilə aradan qaldırılması vacibdir. Vergidən yayınmaya səbəb olan halların vergiyə cəlb olunmaya şərait yaradan şərtlər ilə əvəzlənməsi iqtisadi dövriyyənin şəffaflaşmasına və leqallaşmasına, bununla da nağdsız hesablaşmaların genişlənməsinə, daha çevik və rahat elektron (rəqəmsal) ödənişlərə meylin güclənməsinə gətirib çıxaracaqdır.

Son dövrlərdə rəqəmsal ödənişlərin genişləndirilməsinə hədəflənmiş bir sıra hüquqi aktlar qəbul edilmiş, islahatlar aparılmışdır. Səmərəli vergi inzibatçılığını həyata keçirmək üçün Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) yaradılmışdır. Bu gün vergi inzibatçılığının bütün səviyyələrində məlumat mübadiləsi AVİS vasitəsilə aparılır, sahibkarlıq subyektlərinin qeydiyyatı sadələşdirilmiş rejimdə, «bir pəncərə» prinsipi ilə həyata keçirilir. Bu da biznes mühitini xeyli yaxşılaşdırmış, sahibkarların dövlət qurumlarından asılılığını zəiflətmişdir.

Bununla belə, vergi sistemində aparılan vacib islahatlara baxmayaraq, vergidən yayınmaya səbəb olan inzibati və iqtisadi motivlərin bir daha araşdırılması, sahibkarlıq subyektlərinin mövcud vergi yükünün, vergilərin hesablanması qaydalarının beynəlxalq təcrübəyə uyğun təhlil edilərək qiymətləndirilməsi və bu sahədə islahatların davam etdirilməsi vacibdir.

Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə də vergi islahatlarının davam etdirilməsi və səmərəli vergi sisteminin təşviq edilməsi nəzərdə tutulmuşdur. İslahatlar vergilərin sadələşdirilməsi, iqtisadiyyatda vergi yükünün optimallaşdırılması, vergiyə cəlbi stimullaşdıran vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, vergi uçotunun və hesabatlılığının sadələşdirilməsi kimi tədbirləri əhatə edir. Bu tədbirlərin effektiv icrası qeyri-rəsmi iqtisadi dövriyyənin azalmasına şərait yarada, qeyri-nağd ödənişlərin ən müasir formalarının, rəqəmsal ödənişlərin geniş miqyasda tətbiqi üçün əlverişli mühit formalaşdıra bilər.

Vergi Məcəlləsinin 218.1.1-ci, 218.1.2-ci maddələrinə əsasən, ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatlarının həcmi 200.000 manat və ondan az olan şəxslərə və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququ verilmişdir. Lakin sadələşdirilmiş verginin seçilməsi imkanı iqtisadiyyatda nağd ödənişləri də stimullaşdırır. Nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi və bununla yanaşı nağdsız hesablaşmaların stimullaşdırılması ilə bağlı qanunvericiliyə əlavələrin edilməsi nəzərdən keçirilə bilər.

İqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, qeyd olunan Dövlət Proqramının təsdiqlənməsi uzun müddət müzakirələrə səbəb olan nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi üçün nəzərdə tutulub. Proqram optimal vergi yükünün tətbiqini də nəzərdə tutur. Bu isə o deməkdir ki, bəzi vergi dərəcələrinə yenidən baxıla bilər: «Sənəddə qeyd olunur ki, vergitutma mexanizminin sadələşdirilməsi imkanları araşdırılacaq və sahibkarlıq subyektlərinin fəaliyyətində yaranacaq vergi öhdəliklərinin öncədən müəyyən edilməsi və proqnozlaşdırılmasının asanlaşdırılmasına imkan verən, könüllü əməletməyə stimullar yaradan daha təkmil vergi strukturu və optimal vergi yükü formalaşdırılması məqsədilə təkliflər hazırlanacaqdır».

V.Bayramov qeyd edib ki, sənədə əsasən, bütün vergi ödəyicilərinin «Vahid mühasibatlıq sistemi»nə keçidi imkanları təhlil olunacaq, elektron mühasibatlığın tətbiqinin genişləndirilməsi təşviq ediləcəkdir. Kiçik və orta ölçülü şirkətlərin yeni mühasibatlıq sisteminə rahat keçidini təmin etmək üçün mərhələli miqrasiya planı hazırlanacaqdır. Bu isə o deməkdir ki, kiçik və orta müəssisələr sözügedən sistemə mərhələli şəkildə keçəcək və onlar üçün ayrıca miqrasiya tədbirləri reallaşacaq.

**FƏXRİYYƏ**

# Naxçıvan MR Vergilər Nazirliyi bu ilin 9 ayını vergi borcu olmadan başa vurub

Azərbaycanın vergi sistemində son dövrlərdə həyata keçirilən genişmiqyaslı islahatlar, qanunvericilikdə və inzibatçılıqda davamlı olaraq aparılan islahatlar, ölkədə şəffaf biznes mühitinin formalaşdırılması və vergidən yayınma ilə mübarizənin gücləndirilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə başçısı bunu bir daha vurğulayıb və dövlət büdcəsi gəlirlərinin vergilər yolu ilə daha da artırılması ilə bağlı vergi orqanları qarşısında konkret vəzifələr qoyub, gələcək fəaliyyətlərinin konturlarını müəyyən edib.

Naxçıvan MR Vergilər Nazirliyi ölkə Prezidentinin çağırışlarına uyğun olaraq, qanunvericiliklə müəyyən edilmiş vergilərin tam və vaxtında dövlət büdcəsinə ödənilməsinin təmin edilməsi məqsədilə həm vergi ödəyiciləri, həm də cəmiyyətin bütün üzvləri arasında təbliğat, məlumatlandırma və maarifləndirmə işini gücləndirib, vergi mədəniyyətini aşılamaq yolu ilə könüllü əməletmənin səviyyəsinin yüksəldilməsini qarşıya məqsəd qoyub. Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, 2018-ci ilin 9 ayını Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi vergi borcu olmadan başa vurub ki, bu da qurumun tarixində yarandığı dövrdən bəri ilk hadisə kimi qiymətləndirilir.

Məlumdur ki, təcrübədə vergi qanunvericiliyinə əməl edilməsinin həm məcburi, həm də könüllü hallarına rast gəlinir. Bu şərtlərin gözlənilməməsi vergi ödəyicilərinin dövlət büdcəsi qarşısında borclarının əmələ gəlməsinə səbəb olur. Bu isə vergi yığımları üzrə kəsirlərin yaranmasına və nəticədə dövlətin maliyyə resurslarının məhdudlaşmasına gətirib çıxarır. Vergi Məcəlləsinə əsasən qanunla müəyyən edilmiş vergiləri ödəmək vergi ödəyicisinin vəzifəsi hesab edilsə də, Naxçıvan MR Vergilər Nazirliyi yeni yarandığı dövrlərdə vergilərin ödənilməsi, əsasən, məcburi qaydada həyata keçirilirdi. Bu da iri məbləğlərdə vergi borclarının yaranması ilə müşayiət olunurdu. Mətbuat xidmətinin məlumatında bildirilir ki, təxminən 10 il əvvəl - 2008-ci il yanvarın 1-də Naxçıvan MR üzrə vergi ödəyicilərinin büdcəyə yarım milyon manatdan artıq vergi borcu olsa da, hazırda bu rəqəm sıfıra bərabərdir.

Bu, həm də yüksək vergi mədəniyyətinin təzahürüdür. Alınan nəticəyə cəmiyyətdə vergiödəmə vərdişinin formalaşdırılması, bu istiqamətdə təbliğat, məlumatlandırma və maarifləndirmə işinin gücləndirilməsi səbəb olub. Son illərdə bu sahədə nazirlik tərəfindən xeyli iş görülüb, maarifləndirmə işləri muxtar respublikanın bütün rayonlarını davamlı olaraq əhatə edib. Vergi ödəyiciləri ilə görüşlərdə vergi qanunvericiliyinə könüllü əməletmənin üstünlükləri barədə söhbətlər aparılıb, muxtar respublikanın iqtisadi inkişafının daha da sürətləndirilməsində və vergilər üzrə proqnozların yerinə yetirilməsində vergi qanunvericiliyinə könüllü əməletmənin vacibliyi mütəmadi olaraq vurğulanıb. Keçirilən görüşlərdə iştirakçıların məmnunluq səviyyəsinin yüksəldilməsi, bunlarla bərabər nazirliyin bütün aidiyyəti strukturları tərəfindən vergi nəzarətinin daha da gücləndirilməsi vergi ödəyiciləri tərəfindən hesablanmış vergilərin vaxtında və tam ödənilməsində böyük rol oynayıb.

Regionda, həmçinin, nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində də xeyli işlər görülüb. Belə ki, «2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram»a uyğun olaraq, mövcud ödəniş infrastrukturunun daha da təkmilləşdirilməsi, dövlət orqanlarının inzibati xərclərinin ödənişində korporativ kartlardan istifadənin genişləndirilməsi və özəl sektorda işçilərin əməkhaqlarının ödəniş kartları ilə ödənilməsi barədə əhali arasında maarifləndirmə tədbirləri davam etdirilir. Nağdsız ödənişlərin həcminin artırılması məqsədilə kart sahibləri arasında həvəsləndirici tədbirlər keçirilir. 2018-ci ilin 9 ayında «Nağdsız ödəyin, hədiyyə qazanın» adlı həvəsləndirici tədbirlər çərçivəsində 400 manatdan yuxarı məbləğdə nağdsız ödəniş aparan (o cümlədən bankomat, internet və POS-terminaldan istifadə etməklə) 312 vətəndaş müxtəlif hədiyyələr qazanıb.

POS-terminalların tətbiqinin genişləndirilməsi vergi orqanlarının qarşısında qoyulan əsas tələblərdəndir. 2018-ci ilin 1 oktyabr tarixinə muxtar respublikada fəaliyyət göstərən ticarət obyektlərində 1270 POS-terminal quraşdırılıb, nəticədə nağdsız ödənişlərin həcmi 2 milyon 620,1 min manata çatdırılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 240,7 min manat çoxdur.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi Naxçıvan MR Ali Məclisi sədrinin 12 fevral 2000-ci il tarixli fərmanı ilə Naxçıvan MR Baş Dövlət Vergi Müfəttişliyinin bazasında yaradılıb. Vergilər Nazirliyinin strukturuna nazirliyin aparatı və 8 yerli qurum daxildir: Naxçıvan Şəhər Vergilər İdarəsi, Babək Rayon Vergilər İdarəsi, Şərur Rayon Vergilər İdarəsi, Ordubad Rayon Vergilər Şöbəsi, Culfa Rayon Vergilər Şöbəsi, Şahbuz Rayon Vergilər Şöbəsi, Kəngərli Rayon Vergilər Şöbəsi və Sədərək Rayon Vergilər Şöbəsi.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən 2018-ci ilin 9 ayı üzrə proqnoz 107,3 faiz icra edilməklə, vergi daxilolmaları proqnozda nəzərdə tutulduğundan 3359,3 min manat artıq olub. Özəl sektordan vergi daxilolmaları 62,7 faiz təşkil edib. Naxçıvan MR Vergilər Nazirliyinin və yerli vergi orqanlarının qeydiyyat strukturları tərəfindən «bir pəncərə» qeydiyyat sistemi vasitəsilə hesabat dövrü ərzində 20 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına və 1725 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınmış sahibkarlıq subyektlərinin 77 faizi rayonların payına düşür ki, bu da muxtar respublikada kiçik sahibkarlığın inkişafının göstəricisidir.

# Sahibkarlar da dəyişiklikləri səbrsizliklə gözləyirlər

## Tahir Mirkişili: «Vergi Məcəlləsində nəzərdə tutulan islahatlar yalnız iqtisadi məsələ deyil, eyni zamanda böyük bir sosial layihədir»



«Kölgə iqtisadiyyatı»nın aradan qaldırılması, şəffaflığın artırılması məqsədilə vergi və gömrük sahəsində həyata keçiriləcək islahatlar gündəmin əsas mövzularından birinə çevrilib. Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasından sonra bu mövzu bir qədər də aktuallaşıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Tahir Mirkişili «Azad Azərbaycan» telekanalında (ATV) yayımlanan «İqtisadi zona» verilişinə müsahibəsində ölkə iqtisadiyyatında müsbət yeniliklər vəd edən bu islahatlardan, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərin «kölgə iqtisadiyyatı»nın azaldılmasına mümkün təsirlərindən danışıb. Həmin müsahibənin yazı versiyasını oxuculara təqdim edirik.

**- Cənab Prezident Nazirlər Kabinetinin iclasındakı çıxışında vurğuladı ki, əsas məqsədimiz «kölgə iqtisadiyyatı»nın aradan qaldırılması, şəffaflığın təmin edilməsi, uçot sisteminin daha da təkmilləşdirilməsinə nail olmaqdır. Siz bu istiqamətdə görülən işləri necə dəyərləndirirsiniz?**

- Tamamilə doğru yanaşmadır. Hazırda Azərbaycan dünyanın ən rəqabət qabiliyyətli 35 ölkəsindən biridir. Bu o deməkdir ki, artıq biz Avropanın inkişaf etmiş ölkələri ilə rəqabət aparmaq gücündəyik. Həmin ölkələrin siyahısına baxsaq, görərik ki, bunlar kifayət qədər inkişaf etmiş, rəqabət qabiliyyətli və eyni zamanda daha şəffaf iqtisadiyyata malik olan ölkələrdir. Məhz bu cəhətdən, hazırda Azərbaycan iqtisadiyyatı qarşısında duran əsas məsələlər şəffaflığın daha da artırılması, ən yeni müasir texnologiyanın tətbiq olunması, uçot sisteminin düzgün aparılması və «kölgə iqtisadiyyatı»nın payının getdikcə azaldılmasıdır. Müşavirədə həm cənab Prezident, həm də vergilər naziri öz çıxışlarında vergilərin toplanmasında təşviq mexanizmlərinə üstünlük veriləcəyinə dair çox ciddi mesajları ictimaiyyətə çatdırdılar. Bu, sahibkarların özləri üçün də kifayət qədər maraqlıdır. Düzdür, indiyə qədər Azərbaycan iqtisadiyyatının bir çox sektorlarında təşviq mexanizmləri olub. Hazırda ixracda və istehsalda da bu mexanizmlər mövcuddur. Amma vergilərin toplanması və inzibatçılıq sistemində təşviq mexanizmlərinin yaradılması ilk dəfə olaraq tətbiq olunacaq. Düşünürəm ki, bu mexanizmlər ölkədə uçot sisteminin daha da şəffaflaşmasına, «kölgə iqtisadiyyatı»nın aradan qaldırılmasına, vergi yükünün azaldılmasına və nəticədə büdcə gəlirlərinin artmasına gətirib çıxaracaq. Bütün bunlar, təbii ki, son nəticədə Azərbaycan vətəndaşlarının sosial təminatının güclənməsinə, əhalinin rifahının daha yüksək səviyyədə təmin olunmasına imkan verəcək.

**- Şəffaflığın təmin edilməsi eyni zamanda Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsinin fəaliyyətinin daha sıx şəkildə əlaqələndirilməsi və idxal-ixrac əməliyyatlarına nəzarətin qurulması məsələlərini də əhatə etmiş olur...**

- Doğrudur, vergi və gömrük fiskal siyasətin kifayət qədər önəmli bir hissəsidir. Vergi və gömrük siyasəti yalnız vergi ödənişləri və gömrük rüsumları yığmaqdan ibarət deyil, eyni zamanda iqtisadiyyatın təşviq olunması, mövcud potensialın hansı istiqamətdə inkişaf etdirilməsi ilə bağlı xüsusi bir effektiv mexanizmdir ki, bundan daha təsirli istifadə olunmalıdır. Bu baxımdan, hər iki sahədə şəffaflıq, koordinasiyalı fəaliyyət önəmli nəticədir. İkinci bir vacib məsələ ayrı-ayrı dövlət oqranları arasında koordinasiyanın qurulması və məlumat bazalarının inteqrasiyasıdır. Bu da çox mühüm məsələdir. Çünki çarpaz müqayisələr aparılmadan, informasiyaların bir-biri ilə əlaqəsi və inteqrasiyası olmadan hər hansı məlumatın doğruluğunu müəyyənləşdirmək üçün böyük xərc tələb olunur. Bu nöqteyi-nəzərdən, vergi və gömrük orqanları arasında olan informasiya mübadiləsi ilə bağlı cənab Prezidentin imzaladığı fərman və həmin fərmanın müddəalarının yerinə yetirilməsi istiqamətində vergi və gömrük orqanlarının birgə səy göstərməsi çox təqdirəlayiq haldır. Bunun ikinci bir mühüm tərəfi də var: müasir dövrdə informasiya və şəffaflıq bütün sahibkarlar üçün bərabər şəraitin təmin olmasına zəmin yardır.

**- Yeri gəlmişkən, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər də özündə belə bir istiqaməti ehtiva edir. Əsas istiqamətlər Nazirlər Kabinetinin sonuncu iclasında səsləndirildi. Bəs, parlamentdə bu sənədin müzakirəsi nə vaxta gözlənilir?**

- Adətən, Vergi Məcəlləsinə edilən dəyişikliklərin hüquqi qüvvəyə minməsi yeni ilin əvvəlində olmalıdır. Çünki bu zaman uçot və hesabat dövrü başa çatır və artıq yanvardan etibarən yeni hesabat dövrü başlayır. Ona görə də düşünürəm ki, Vergi Məcəlləsinə dəyişikliklər paketi böyük ehtimalla yaxın həftələrdə Milli Məclisə daxil olacaq. Təklif olunan dəyişikliklər parlamentdə müzakirəyə çıxarılıb qəbul edildikdən sonra ölkə başçısına təqdim olunacaq. Məcəlləyə dəyişikliklər Prezident tərəfindən təsdiq edilərsə, yanvar ayından qüvvəyə minəcək. Yeri gəlmişkən, sahibkarlar da bu dəyişiklikləri səbrsizliklə gözləyirlər. Çünki artıq ölkədə qeyri-neft sektorunun inkişafı, dövlətin bu sahəyə dəstəyi sahibkarlar arasında da vergi islahatlarına həvəs və maraq oyadıb. Yəni, Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər, yeni vergi mexanizmləri də bu inkişafı dəstəkləyən bir sosial tələb yaradıb. Eyni zamanda, xeyli müddətdir bu sahədə müəyyən addımlar atılır, analizlər və təhlillər aparılır. Bu, əslində, o deməkdir ki, nəzərdə tutulan dəyişikliklər daha əhatəli, daha çox təhlil olunmuş, həm də gələcəyə yönəlik bir qərar olacaq. Çünki vergi sistemində həyata keçirilən hər bir dəyişiklik sonrakı mərhələlərdə iqtisadiyyata investisiyaların qoyulmasına, xarici investorların ölkəmizə marağının artmasına və istehsalla bağlı verilən qərarların hansı müddəti əhatə etməsinə ciddi təsir edir. Ona görə də, düşünürəm ki, yeni islahatlar təşviqedici xarakter daşımaqla, eyni zamanda sahibkarlara daha çox gələcəyə yönəlik investisiyalar qoymaq, istehsalı və ixracı artırmaq üçün yeni bir mühitin yaranmasına xidmət edəcək. Hesab edirəm ki, yaxın vaxtlarda parlamentdə müzakirə olunacaq bu dəyişikliklər iqtisadiyyatın inkişafında yeni bir mərhələ olacaq.

Yeri gəlmişkən, əməkhaqqının leqallaşması ilə bağlı cənab Prezidentin imzaladığı ayrıca bir fərman da var. Heç kəsə sirr deyil ki, Azərbaycanda «kölgə iqtisadiyyatı»nın yaranması və inkişaf etməsinin ən böyük mənbələrindən biri məhz qeyri-leqal əməkhaqqıdır. Beynəlxalq təcrübə də göstərir ki, bütün dünyada «kölgə iqtisadiyyatı»nda əsas rolu qeyri-leqal əməkhaqqı oynayır. Bu baxımdan, Azərbaycanda əməkhaqqının leqallaşdırılması ilə bağlı görülən və görüləcək hər bir tədbir bütövlükdə ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, bu tədbirlərdən biri vergilərin azaldılması və yaxud vergi dərəcələrinin dəyişdirilməsi ilə bağlıdır. Düzdür, bu sahədə müxtəlif inzibati metodlar tətbiq olunur, dövlət nəzarəti həyata keçirilir. Amma təcrübə göstərir ki, inzibati nəzarət tədbirləri ilə yanaşı, təşviq mexanizmlərinə də böyük ehtiyac var. Əməkhaqqının leqallaşmasında sahibkarlar özləri də maraqlı olmalıdırlar. Eyni əməkhaqqına tətbiq olunan vergi dərəcələri mənfəət vergisi dərəcəsinə uyğunlaşdırılmalıdır. Ona görə də daha çox gəlir əldə etmək istəyən sahibkarların bununla bağlı öz qərarları olmalıdır. Həmçinin insanlar arasında da belə bir təşviq mexanizmləri yaranmalıdır. Çünki qeyri-leqal əməkhaqqı sonradan insanların gələcək pensiya və sosial təminatında böyük çətinliklər, maneələr yaradır. Bu baxımdan, əməkhaqqına vergi dərəcələri ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklər yalnız iqtisadi məsələ deyil, eyni zamanda, böyük bir sosial layihədir. Hesab edirəm ki, bu dəyişikliklə əməkhaqqının leqallaşması istiqamətində mühüm irəliləyişə nail olmaq mümkündür.

> Yeni mexanizmlər uçot sisteminin şəffaflaşmasına, «kölgə iqtisadiyyatı»nın aradan qaldırılmasına, vergi yükünün azaldılmasına və nəticədə büdcə gəlirlərinin artmasına gətirib çıxaracaq

*Hazırladı:*
**E. SALAHOV**

# Bu islahatlar həyata keçirilərsə...

«Bu il iqtisadi sahədə köklü islahatlar davam etdirilir. Biz bu islahatların nəticələrini görürük. Xüsusilə vergi və gömrük sistemində aparılan islahatlar böyük dəyişikliyə, müsbətə doğru dəyişikliklərə səbəb olur. İslahatlar davam etdirilməlidir. Bu gün sahibkarları, ictimaiyyəti narahat edən vergi və gömrük sahəsində işlərlə, məsələlərlə bağlı bütün lazımi addımlar atılmalıdır ki, bu xoşagəlməz hallara son qoyulsun».

Bu fikirləri Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev səsləndirib. Dövlət başçısı çıxışında vergi və gömrük orqanlarının birgə əməkdaşlığını xüsusi vurğulayaraq bildirib ki, hər iki qurumda struktur islahatları davam etdirilməlidir: «Şəffaflıq vergi və gömrük orqanlarında tam təmin edilməlidir, struktur islahatları davam etdirilməlidir. Korrupsiyaya, rüşvətxorluğa qarşı ən ciddi mübarizə aparılır və aparılacaqdır. Bu kompleks tədbirlər biznes mühitinin yaxşılaşdırılmasına öz dəstəyini verəcək. Sağlam rəqabətin təmin edilməsi üçün indi şərait yaradılır. İnhisarçılığa qarşı mübarizə çox ciddi xarakter alıbdır. Bir daha demək istəyirəm ki, bütün aidiyyəti qurumlar, özəl və dövlət şirkətləri mənim sözlərimdən nəticə çıxarsınlar. Vergi və gömrük sistemləri Azərbaycanda şəffaflığın nümunəsi olmalıdır...».

Prezident İlham Əliyev bütün dövlət orqanlarını kölgə iqtisadiyyatının aradan qaldırılmasında vergi orqanlarına kömək göstərməyə çağırıb: «Bizim əsas vəzifəmiz «kölgə iqtisadiyyatı»nın aradan qaldırılmasıdır. Düzdür, heç bir ölkədə buna 100 faiz nail olunmayıb, hər bir ölkədə «kölgə iqtisadiyyatı» var, amma bunun dərəcəsi var. Azərbaycanda «kölgə iqtisadiyyatı»nın kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu, əlbəttə, imkan vermirdi ki, biz öz potensialımızı tam gücü ilə işə salaq. Bu gün bu hallara son qoyulur. Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər. Müvafiq göstərişlər verilir. Vergidən yayınmaya son qoyulmalıdır. Bu, həm iri, həm də kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar öz fəaliyyətlərini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq, öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən sahibkarlar bu sahədə öz dəstəklərini verməlidirlər».

Xatırladaq ki,Vergilər Nazirliyi ilə Dövlət Gömrük Komitəsi arasında əməkdaşlıq məsələləri bu yaxınlarda hər iki qurumun birgə kollegiya iclasında da müzakirə olunub. Ölkə Prezidentinin 28 iyun 2018-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «İdxal-ixrac əməliyyatlarına nəzarət sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planı»nın icra vəziyyətinə həsr olunmuş iclasda hər iki qurum qarşısında qoyulan tapşırıqların qısa zaman kəsiyində qüsursuz həyata keçirilməsinin vacibliyi qeyd olunub. Bildirilib ki, vergi və gömrük orqanlarının fəaliyyətinin əlaqələndirilməsi həyata keçirilən tədbirlərin səmərəliliyinin artmasına və müsbət fiskal nəticələrə gətirib çıxaracaq.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov «Vergilər» qəzetinə açıqlamasında vergi və gömrük orqanlarının sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərməsinin son dərəcə vacib olduğunu deyib. Deputat bildirib ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin sonuncu iclasında vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi üçün birgə əməkdaşlıq, habelə «kölgə iqtisadiyyatı»nın aradan qaldırılması ilə bağlı cəmiyyətə ciddi mesajlar verib: «Həm dövlət başçısı, həm də vergilər naziri «kölgə iqtisadiyyatı» ilə bağlı çox mühüm məsələləri xüsusi vurğuladı. Vergilər naziri Mikayıl Cabbarov çıxışında «gizli iqtisadiyyat»ın ümumi inkişafa maneələr yaratdığına diqqət çəkərək bu sahədə müəyyən islahatların labüd olduğunu bildirdi. Bəzən vergi-uçot sisteminin düzgün aparılmaması, vergidən yayınma hallarının mövcudluğu, işçilərin qeyri-leqal fəaliyyət göstərməsi, hesabatların verilməməsi və digər qüsurlar faktiki olaraq Azərbaycanda «kölgə iqtisadiyyatı»nın çiçəklənməsinə səbəb olur. Ona görə də vergi və gömrük orqanları öz işini elə qurmalıdır ki, «gizli iqtisadiyyat» üçün şərait yaranmasın. Vergi və gömrük orqanlarında şəffaflıq nümunəsi ortaya qoyulsa, bu, Azərbaycanın digər iqtisadi qurumları üçün də ciddi əsaslar yaradacaq. Hazırda Vergilər Nazirliyində islahatlar paketi hazırlanır. Həmin islahatlar müvəffəqiyyətlə həyata keçirildikdən sonra, ölkə iqtisadiyyatında çox ciddi müsbət dəyişikliklərin şahidi olacağıq».

Millət vəkili son vaxtlar gömrük sistemində də şəffaflığın təmin olunması, vergi orqanları ilə birgə əməkdaşlıq istiqamətində müəyyən işlərin görüldüyünü deyib. Amma onun fikrincə, görüləsi işlər hələ çoxdur: «Hesab edirəm ki, vergi və gömrük orqanları birgə tədbirlər planı hazırlayıb daha şəffaf fəaliyyət göstərməlidirlər. Bu, xüsusilə də gömrükdən keçən mal və məhsulların düzgün qeydiyyata alınması, sahibkarların vergi və rüsumları daha rahat şəkildə ödəyə bilməsi və bütövlükdə vergidən yayınma hallarının qarşısının alınması üçün çox vacibdir. Heç kəsə sirr deyil ki, gömrük sistemində uzun illər müəyyən çatışmazlıqlar olub, üstəlik, ölkədə ikili mühasibatlıq problemi hələ də qalır, qeyri-leqal iş əmsalı yüksək səviyyədədir. Bütün bunların aradan qaldırılması Azərbaycanda «kölgə iqtisadiyyatı»nın qarşısının alınmasına müsbət təsir edə bilər».

V.Əhmədovun fikrincə, xaricdən idxal olunan bəzi mal və məhsullara tətbiq edilən rüsumlar aşağıdır, digərlərində isə əksinə, çox yüksəkdir: «Bu, ümumi iqtisadiyyata mənfi təsir göstərir. Eyni zamanda, xaricdən idxal olunan malların qeydiyyatında da bəzən uyğunsuzluqlar aşkarlanır. Məsələn, xaricdən gələn bir məhsulun həcmi həmin dövlətlərin ərazisində qeydiyyatdan keçərkən 1000 ton göstərildiyi halda, Azərbaycan gömrüyündə 200 ton kimi qeydiyyata alınır. Düzdür, son aylar görülən tədbirlər sayəsində bu cür halların qarşısı müəyyən qədər alınıb. Bu, onunla əlaqədardır ki, həm gömrük, həm də vergi orqanlarında çox ciddi kadr islahatları aparılıb. Gömrük sistemi Azərbaycanın güzgüsüdür. Elə bir şəffaf mexanizm qurulmalıdır ki, xaricdən daxil olan mal və məhsulların qeydiyyatında, rüsumların ödənişində qanundankənar hərəkətlərə yol verilməsin. Bu, həm də vergi və gömrük orqanlarının birgə əməkdaşlığından asılıdır».

> Vergi və gömrük orqanlarında şəffaflıq nümunəsi ortaya qoyulsa, bu, Azərbaycanın digər iqtisadi qurumları üçün də ciddi əsaslar yaradacaq

**Elxan SALAHOV**

# Bank fəaliyyəti və vergi qanunvericiliyi

2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsində dəyişikliklər həm vətəndaşların, həm bank sektorunun, həm də ümumilikdə ölkə iqtisadiyyatının inkişafında önəmli rol oynayır. Vergi Məcəlləsinin 125.1-1. maddəsinə görə, Azərbaycan Respublikasının rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən, əməliyyatı həyata keçirən bank həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutur. Mövcud qanunvericiliyə əsasən, elektron pul kisəsi vasitəsilə ölkədən valyutanın çıxışına vergi tətbiq edilir.

Mövzu ilə bağlı müraciətimizi «Respublika Bank»ın departament direktoru Tural Səlimov belə cavablandırıb: «Məsələn, hər hansı şəxs xaricdə yerləşən elektron pul kisəsinə (tutaq ki, skrill.com ünvanında) ödəniş kartı, yaxud pul köçürməsi yolu ilə vəsait mədaxil edərsə, bu halda həmin şəxsdən əməliyyatın 10 faizi məbləğində vergi tutulacaqdır. Verginin tutulmasına məsul olan banklar əməliyyatın elektron pul kisəsinə köçürülən vəsait olduğunu həmin əməliyyatın koduna əsasən müəyyən edir və müvafiq verginin tutulmasını təmin edirlər».

Vergi Məcəlləsinin 220.12-ci maddəsində bildirilir ki, hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə 1 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır. Mütəxəssisin fikrincə, bu maddə nağdsız dövriyyənin stimullaşdırılmasına xidmət etsə də, bəzən 1 faizlik vergidən yayınmaq üçün sahibkarlar daha çox nağd dövriyyəyə üstünlük verirlər.

Vergi Məcəlləsinin 169.1 və 169.3 maddələri elektron ticarət qaydalarını əks etdirir. T.Səlimov bildirib ki, bu qaydalarda işlərin və xidmətlərin alıcısı, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların, digər yarış və müsabiqələrin iştirakçısı vergi orqanlarında uçota durmayan şəxs olduqda, ödənişi aparan bank tərəfindən hesablanan 18% ƏDV büdcəyə alıcının vəsaiti hesabına ödənilir: «Başqa sözlə desək, vergi uçotunda olmayan şəxs hər hansı xarici saytdan müəyyən bir xidmət aldıqda (otel və aviabilet istisna edilməklə, lotereya bileti, mərc oyunlarına bilet və s.) ƏDV ödəməlidir. Bu zaman ƏDV-nin məbləği banklar tərəfindən avtomatik tutulmalı və vergi şəklində dövlət büdcəsinə köçürülməlidir. Burada məqsəd ölkədən valyuta axınının məhdudlaşdırılması, xaricdən əldə edilən xidmətlərlə müqayisədə yerli xidmətlərə üstünlük verilməsi, onların inkişafı üçün stimul yaradılmasıdır».

Vergi Məcəlləsinin 150.1 və 150.1.11-ci maddələrinə əsasən, lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident hüquqi şəxs və fərdi sahibkarlar tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə, bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin şəxsdən ödəmə mənbəyindən vergi tutmağa borcludur. Bu maddə bankları vergitutma prosesinə cəlb etdiyi üçün vergidən yayınmanın qarşısı alınır və gəlirlər vergiyə cəlb edilir.

T.Səlimov diqqəti Vergi Məcəlləsinin 102-ci maddəsində gəlir vergisindən azadolmalar və güzəştlər müəyyən edildiyinə yönəldərək deyib: «102.1.22-ci maddəyə görə 2016-cı il fevralın 1-dən etibarən 7 (yeddi) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad edilib. Bu o deməkdir ki, fiziki şəxslər Azərbaycan Respublikasında yerləşən banklara əmanət yerləşdirdikdə və bu əmanətlərdən gəlir əldə etdikdə, yaxud buna bənzər əməliyyatlar qiymətli kağızlar üzrə həyata keçirildikdə həmin şəxslərdən gəlir vergisi tutulmur. Bu maddə bank sektoruna vəsaitlərin cəlb edilməsində xüsusi önəm daşıyır. Bank sektorunun inkişafı isə, təbii ki, ümumilikdə ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərir».

Qeyd olunub ki, vergi qanunvericiliyinə edilən bütün təkmilləşdirmələr ölkə iqtisadiyyatının daha da güclənməsini, bank sektorunun bu prosesə daha yaxından cəlb edilməsini təmin edir: «İlk dövrlərdə qeyri-nağd dövriyyəyə uyğunlaşmamış sahibkarlıq subyektlərinin və fiziki şəxslərin bu prosesə cəlb edilməsində çətinliklərin olması anlaşılandır. Lakin zaman keçdikcə, bu proseslərdə müəyyən boşluqlar aradan qaldırılacaq, aparılan islahatların təsiri həm fiziki şəxslər, həm sahibkarlıq subyektləri, həm də banklar, ümumilikdə isə ölkə iqtisadiyyatı üçün daha aydın hiss ediləcək».

**FƏXRİYYƏ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin
Vergi siyasəti departamentinin baş direktoru
vergi ödəyicilərinin suallarına cavab verir

# NKA çekinin verilməsi

***Pərakəndə ticarət fəaliyyəti göstərən təsərrüfat subyektlərində (obyektlərində) alıcı tərəfindən malların dəyəri nağdsız qaydada POS-terminal vasitəsilə ödənildikdə həmin məbləğ nəzarət-kassa aparatına (NKA) mədaxil edilərək alıcıya nəzarət-kassa aparatının çeki verilməlidirmi?***

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli fərmanı ilə təsdiq edilmiş «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası»nın 4.1-ci bəndinə görə, pərakəndə ticarət fəaliyyəti göstərən təsərrüfat subyektlərində (obyektlərdə) malların təqdim edilməsi (satışı) nəzarət-kassa aparatı və POS-terminal tətbiq edilməklə həyata keçirilir. Belə təsərrüfat subyektlərində (obyektlərdə) malların təqdim edilməsi (satışı) zamanı alıcıya (istehlakçıya) nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası) verilir.

Malların dəyəri nağdsız qaydada (POS-terminal vasitəsilə) ödənildikdə, alıcıya (istehlakçıya) nəzarət-kassa aparatının çeki (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin tələbi ilə qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası) ilə yanaşı, POS-terminaldan çıxarış verilir.

**Qeyd olunanlara əsasən:**

Pərakəndə ticarət fəaliyyəti göstərən təsərrüfat subyektlərində (obyektlərində) alıcı tərəfindən malların dəyəri nağdsız qaydada POS-terminal vasitəsilə ödənildikdə alıcıya POS-terminaldan çıxarış ilə yanaşı, həmin məbləğ nəzarət-kassa aparatına mədaxil edilərək alıcıya nəzarət-kassa aparatının çeki də təqdim edilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya
**s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## ƏRAZİ VERGİ ORQANLARINDA

- Cəlilabad şəhərində 6 saylı Ərazi Vergilər İdarəsi tərəfindən 7 saylı tam orta məktəbdə şagirdlərlə, rayonun Babalı kənd tam orta məktəbində isə «Vergi dostları» ilə görüşlər keçirilib. Görüşlərdə şagirdlərə vergilərin əhəmiyyəti və vergi orqanlarının fəaliyyəti, «Vergi dostları»na isə Vergi Məcəlləinə edilən əlavə və dəyişikliklər barədə ətraflı məlumatlar verilib.

- İmişli şəhərində 8 saylı Ərazi Vergilər İdarəsinin vergi ödəyiciləri ilə keçirdiyi görüşdə Vergi Məcəlləsinin tələblərinə uyğun yerinə yetirilməli olan vergi öhdəlikləri, sahibkarların hüquqlarının müdafiəsi istiqamətində görülən işlər, «Elektron hökumət» portalının imkanları və istifadəsi qaydaları və digər mövzular ətrafında fikir mübadiləsi aparılıb, vergi ödəyicilərini maraqlandıran suallar cavablandırılıb.

- Sumqayıt şəhərində 2 saylı Ərazi Vergilər Departamentinin vergi ödəyiciləri ilə keçirdiyi görüşdə vergi uçotunun şəffaflaşdırılması, vergidən yayınma hallarının qarşısının alınması, vergitutma bazasının genişləndirilməsi, vergilərin düzgün hesablanaraq, tam həcmdə və vaxtında dövlət büdcəsinə ödənilməsi və digər mövzularla bağlı məlumatlar verilib. Tədbir iştirakçılarının real əməkhaqqının düzgün bəyan edilməsi, əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi və digər məsələlərlə bağlı sualları cavablandırılıb.

# İnsanların sağlamlığı, iqtisadiyyatın inkişafı naminə...

## Tütün və tütün məmulatlarına tətbiq olunan aksiz vergisinin artırılması zamanın tələbidir

Son illər bütün dünyada, xüsusilə inkişaf etmiş ölkələrdə tütün məmulatları və spirtli içkilərin idxalına tətbiq edilən aksiz dərəcələri qaldırılır. Qonşu Rusiyada isə bu siyasət Maliyyə Nazirliyinin hazırladığı və bir neçə il əvvəl tətbiqinə başlanmış xüsusi qanun layihəsindən sonra aktuallaşıb. Layihənin təsdiqindən sonra Rusiyada hər 1000 ədəd filtrli siqaret üçün aksiz vergisinin dəyəri 550 rubldan 820 rubla qaldırılıb. Şimal qonşumuzda tütün və tütün məhsullarına qarşı dövlət səviyyəsində aparılan mübarizə tədbirləri nəticəsində siqaretin qiyməti təxminən 50 faizədək bahalaşıb.

### Dünya siqaretə qarşıdır

Hazırda tütündən istifadə dünyada ən yayılmış zərərli vərdişlərdən hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, dünyada siqaret çəkənlərin sayı 1 milyarddan çoxdur. Tütündən istifadə insanlarda xərçəng, ürək-damar və nəfəs yolları xəstəliklərinin əsas səbəbi sayılır. Hesablamalara görə, tütünün zərərli təsiri nəticəsində yaranan xəstəliklər səbəbindən hər 6 saniyədə 1 nəfər dünyasını dəyişir ki, bu da ildə 6 milyon insan deməkdir. Dünya alimləri həyəcanla bəyan edirlər ki, «tütün epidemiyası» ilə bağlı lazımi tədbirlərin görülməyəcəyi təqdirdə, bu rəqəm 2030-cu ildə 8 milyona çata bilər.

Yeri gəlmişkən, bu yaxınlarda BMT-nin «Qanunsuz tütün ticarəti ilə mübarizə və tütün məmulatlarının istifadəsinin aradan qaldırılması haqqında» protokolu qüvvəyə minib. ÜST-nin tütünə qarşı mübarizə üzrə çərçivə konvensiyasının 15 maddəsi əsasında yaradılıb və onu tamamlayır. 2012-ci il noyabrın 12-də Seulda qəbul olunmuş konvensiya dünya səhiyyəsi baxımından baha başa gələn, mürəkkəb beynəlxalq cinayətkar şəbəkənin aradan qaldırılması istiqamətində tərtib edilmiş nadir hüquqi aktdır. Tütünün qanunsuz satışı ilə mübarizə və tədarük şəbəkəsinə nəzarət qaydalarının əks olunduğu sənəddə hüquqazidd əməllər müəyyən edilib və onların qarşısının alınması üzrə tədbirlər planı göstərilib. Protokolda tütün məhsullarının əsas axınının izlənməsi üçün qlobal sistemin yaradılması təklif edilir. Hazırda sənəd 48 ölkə tərəfindən qəbul olunub.

### Azərbaycanda hər 10 nəfərdən 4-ü siqaret çəkir

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2017-ci ilin məlumatına əsasən, hazırda ölkəmizdə hər 10 nəfərdən 4-ü siqaret çəkir. Məhz buna görədir ki, tütün və tütün məhsullarına qarşı mübarizə tədbirləri son illər Azərbaycanda da aktuallaşıb. İctimai yerlərdə siqaret çəkməyin qadağan edilməsi, bu qaydaları pozan şəxslərə inzibati qaydada cərimələr tətbiq edilməsi, eləcə də ölkəyə xaricdən idxal olunan tütün və tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələrinin artırılması bu sahədə atılmış addımlara misal ola bilər. 2018-ci il yanvarın 23-dən Azərbaycan Respublikasının ərazisinə gətirilən tütün və tütün məmulatlarına tətbiq edilən aksiz vergiləri də 2 dəfədən çox artırılıb. Nazirlər Kabinetinin «Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında» qərarına əsasən, siqaretlərin 1000 ədədinə tətbiq edilən aksiz dərəcəsi 4 manatdan 12 manata qaldırılıb.

### Vergi dərəcələrinə yenidən baxmağa ehtiyac var

Bəs tütün və tütün məmulatlarına tətbiq edilən vergi dərəcələrinin artırılması yerli istehsala və satışa necə təsir göstərir? Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, «European Tobacco-Baku» ASC-nin İdarə Heyətinin sabiq sədri Rüfət Quliyev tütün və tütün məmulatlarına aksiz vergisinin hələ də aşağı olduğu qənaətindədir. Onun fikrincə, Azərbaycanda tütün idxalına tətbiq olunan aksiz vergisi Avropadakı qədər yüksək deyil: «Bu sahədə Avropa təcrübəsini öyrənən bir şəxs kimi deyə bilərəm ki, bir çox ölkələrdə tütün idxalına tətbiq edilən aksiz vergisi bizdəkindən əhəmiyyətli dərəcədə fərqlənir. Tütün məmulatlarına aksiz vergilərinin tətbiq olunması ilk növbədə büdcənin gəlirlərinin artması üçün lazımdır. Bu siyasət həm də ölkədə siqaretə qarşı dövlət siyasətinin tərkib hissəsi kimi, vacib amildir. Yəni tütün və tütün məmulatlarının idxalına tətbiq olunan aksiz vergisinin artırılması ölkə əhalisinin siqaretdən imtina etməsinə müəyyən qədər kömək edir. Bu, bütün dünyada tətbiq edilən və qəbul olunan mexanizmlərdən biridir».

**Siqaretin qiymətinin müqayisəsi** (1 qutu, ABŞ dolları)

| Siqaretin adı | Azərbaycan | Fransa | Almaniya | Bolqarıstan |
|---|---|---|---|---|
| Kent nanotek black | 1,59 | 6,6 | 8,72 | 7.1 |
| Kent (nazik) | 1,59 | 6,2 | 8,37 | 6.8 |
| Kent (kompakt) | 1,59 | 6,2 | 8,37 | 6.8 |
| Winston | 1,47 | 5,8 | 6,54 | 3.2 |
| Winston XS | 1,47 | 5,8 | 6,54 | 3.2 |
| Winston blue | 1,47 | 5,7 | 6,54 | 4.7 |
| Winston silver | 1,47 | 5,7 | 6,54 | 4.7 |
| Davıdoff Blue | 2,0 | 7,4 | 7 | 6.2 |
| Davıdoff Classic | 1,76 | 7,1 | 7 | 6.1 |

### Yerli istehsal stimullaşdırılmalıdır

Aksiz dərəcələrinin artırılmasının yerli istehsala və satışa təsirinə gəlincə, millət vəkili bildirib ki, xaricdən idxal edilən tütün və tütün məmulatlarına tətbiq olunan vergilər yüksək olmalıdır. Onun fikrincə, idxal məhsullarına vergi dərəcələrini artırmaq yolu ilə daxili bazar qorunmalı və yerli istehsala daha çox stimul verilməlidir: «Siqaretin tərkibində 27 komponent var və onun 20-si Azərbaycanda istehsal olunur. Lakin çalışmalıyıq ki, həmin komponentlərin hamısını ölkəmizdə istehsal etmək üçün münbit şərait yaransın. Xaricdən idxal olunan tütün məmulatlarına aksiz vergisinin dərəcəsini artırmaqla biz yerli istehsalı stimullaşdırmalıyıq. Bu, ölkə iqtisadiyyatının ümumi inkişafına, büdcə gəlirləri üçün yeni mənbələrin yaradılmasına gətirib çıxarmalıdır».

Mütəxəssis qeyd edib ki, aksiz dərəcələrinin qaldırılmasından sonra idxalda və istehsalda müəyyən dəyişikliklər baş verir: «Şəxsi hesablamalarıma görə, bu ilin əvvəlində tütün və tütün məmulatlarına aksiz dərəcələrinin artırılmasından sonra ölkəyə tütün idxalının həcmi müəyyən qədər azalıb. Təbii ki, xaricdən gətirilən mallara aksiz dərəcələri tətbiq olunanda həmin siqaretin qiyməti artır və bunun əvəzində daxili istehsala tələbat yüksəlir ki, bu da yerli istehsalın stimullaşdırılmasına, kənd təsərrüfatının bir sahəsi kimi tütünçülüyün inkişafına yol açır. Biz özümüz keyfiyyətli tütün istehsal etməklə həmin məhsulları xarici bazarlara çıxarmaq, ölkə iqtisadiyyatı üçün əlavə gəlir mənbələri əldə etmək imkanı qazanırıq. Ona görə də əsas diqqəti daxili istehsalın artırılmasına yönəltməliyik. Bu isə yeni iş yerlərinin açılmasına, maaşların artmasına, son nəticədə insanların rifahına müsbət təsir edər. Biz məsələyə bu cür yanaşmaqla ölkənin ümumi iqtisadiyyatına müəyyən töhfə verə bilərik».

İqtisadçı ekspert Vüqar Bayramov da yerli istehsalın stimullaşdırılması baxımından xaricdən idxal olunan tütün və tütün məmulatlarına tətbiq edilən aksiz dərəcələrinin yüksəldilməsinin tərəfdarıdır. Ancaq o, bəzi şərtlərin nəzərə alınmasını zəruri hesab edir. İqtisadçının fikrincə, aksiz vergisi o məhsullara tətbiq edilir ki, həmin məhsula daxili tələbatın mühüm hissəsi yerli istehsal hesabına ödənilir. Belə olan halda, daxili tələbatı ödəməyən məhsullara yüksək dərəcəli aksiz vergisinin tətbiqi məqsədəuyğun deyil. Çünki vergi dərəcələrinin yüksək olması ölkəyə gətirilən məhsulların kəskin bahalaşmasına gətirib çıxarır: «Bu baxımdan, aksiz vergisi artırılan məhsullarla bağlı qərar verilərkən daxili bazardakı vəziyyəti, bahalaşma amilini nəzərə almaq lazımdır. Ancaq bir halda ki, Azərbaycan hökuməti tütünçülüyün inkişafı ilə bağlı Dövlət Proqramı hazırlayıb və bu sahənin inkişafını prioritet hesab edir, o zaman daxili istehsalın stimullaşdırılması naminə xaricdən idxal olunan məhsullara tətbiq edilən aksiz dərəcələrinin qaldırılması başadüşüləndir».

**Elxan SALAHOV**

# Sosial şəbəkələrlə vergi münasibətləri tənzimlənməlidir




Bu gün sosial şəbəkələr həyatımızın tərkib hissəsinə çevrilib. Böyük və kiçik şirkətlər öz reklam siyasətlərini sosial şəbəkələr vasitəsilə həyata keçirir, müştəri bazasını burada formalaşdırırlar. «The State of Social-2018»in məlumatına əsasən, dünya brendlərinin 96%-i «Facebook» sosial şəbəkəsinin istifadəçisidir. Sosial şəbəkələr həm məhsul və xidmətlərini tanıtmaq istəyən şirkətlər, həm də asan yolla pul qazanmaq istəyən istifadəçilər üçün gəlir mənbəyidir. Məşhur simalar başda olmaqla, bloggerlərin və təşəbbüskar insanların sosial şəbəkə fenomenlərinin paylaşımları saniyələr içində minlərlə adama ötürülür. Ən çox ödənişi də ən çox izləyicisi olanlar qazanır.

Bu ilin iyun ayında Uqanda parlamenti tərəfindən qəbul edilmiş qanun «Facebook», «WhatsApp», «Viber» və «Twitter» kimi resurslardan istifadəyə görə gündəlik 200 Uqanda şillinqi (0,05 ABŞ dolları) məbləğində vergi tətbiqini nəzərdə tutur. Ölkə prezidenti Yoveri Kaquta Museveni hesab edir ki, bu üsulla internetdə «yalanın yayılmasını dayandırmaq» mümkün olacaq. Qanun digər vergilərin (məsələn, bütün mobil əməliyyatlardan əldə edilmiş məbləğin 1%-i) tətbiqini də nəzərdə tutur. Uqandanın maliyyə naziri Matia Kasayya deyib ki, yeni qanun internetdən istifadəni əsla məhdudlaşdırmır.

Türkiyədə isə sosial şəbəkələrdə təqdim olunan reklamlara görə yeni qanun hazırlanır. Qanun qüvvəyə mindikdən sonra məhsulu reklam edib minlərlə lirə qazanan şirkətlər və məşhurlar vergi ödəməli olacaq. İsrail də «Google» və «Facebook» şirkətlərini vergi ödəməyə məcbur etmək niyyətindədir. «The Marker» qəzetinin məlumatına görə, ölkənin Maliyyə Nazirliyi sosial şəbəkələrin vətəndaşlardan əldə etdikləri təxmini gəliri müəyyənləşdirərək Vergilər Nazirliyinə təqdim edəcək, Vergilər Nazirliyi isə təqdim olunan sənədlərin əsasında vergiyə cəlbolunma mexanizmi hazırlayacaq.

Azərbaycanda da sosial şəbəkələrdən pul qazananlar çoxdur. Onlardan bəziləri reklam paylaşımlarını barter yolu ilə etsə də, əksəriyyəti bunu pul qarşılığında həyata keçirir. Vergi Məcəlləsinin 125.1-1 maddəsinə əsasən, Azərbaycan Respublikasının rezidentləri tərəfindən qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən əməliyyatı həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru həmin rezidentdən köçürülən məbləğin 10 faizi miqdarında ödəmə mənbəyində vergi tutur. Qanunvericilikdə bildirilir ki, rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və ölkə hüdudlarından kənarda əldə etdiyi gəlir hesab olunduğundan, sosial şəbəkələr vasitəsilə əldə edilən gəlir sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir kimi gəlir vergisinin vergitutma obyektini təşkil edir və belə gəliri əldə edən fiziki şəxs vergi orqanında vergi uçotuna duraraq qanunamüvafiq qaydada gəlirlərini bəyan etməli, vergisini hesablayaraq dövlət büdcəsinə ödəməlidir.

Vergi Məcəlləsində onlayn formada tədarük edilən xidmət və işlərə görə 18%-lik ƏDV tutulur. Bu xidmətlərə sosial şəbəkələrdə ödənişli reklamlar da daxildir. Bundan başqa, elektron pul kisələrinə («Google-wallet», «Apple's Passbook», «Lemon Wallet», «Square Wallet», «Isis» və s.) pul yerləşdirildiyi zaman da 10%-lik vergi tətbiq olunur.

İqtisadçı ekspert Pərviz Heydərov bildirib ki, gəlir gətirən istənilən növ fəaliyyətdən bu və ya digər formada vergi tutulmalıdır. Bu, ədalətli gəlir anlayışının mühüm tərkib hissələrindən biridir: «Bu gün informasiya texnologiyaları sferasında gəlir gətirə bilən fəaliyyət üçün geniş imkanlar mövcuddur. Lakin bu sahəyə ciddi nəzarət edilməlidir ki, gizli biznesdən və ya gəlir gətirən fəaliyyətdən əldə olunan qazancdan dövlət büdcəsinə heç bir ödəniş edilməsin». Mütəxəssis vurğulayıb ki, bu istiqamətdə inkişaf etmiş ölkələrin təcrübələrindən istifadə edilməklə və tanınmış şirkətlərin bu və ya digər məhsullarının onların öz sərhədsiz informasiya alətləri vasitəsilə reklamları və digər işgüzar fəaliyyətləri nəzarətə götürülməli və vergiyə cəlb olunmalıdır».

İqtisadçı ekspert Rəşad Əliyevin sözlərinə görə, elektron ticarət sahəsinin vergiyə cəlb edilməsi bütün dünyada aktualdır. Bu növ ticarət internet şəbəkəsi üzərindən qurulduğu üçün internet kimi onun da sərhədi olmur. Yəni bir ölkə ərazisindən bütün dünyaya mal satmaq mümkündür. Bu isə vergiqoyma və rəqabət sahəsində ciddi problemlər yaradır: «Təsəvvür edin ki, Bakıda hansısa ticarət obyekti mağazaya görə icarə haqqı ödəyir, işçi saxlayır, satışdan dövlətə vergi verir. Bütün bunlar malın dəyərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Lakin alıcıya eyni malın ucuzu lazımdırsa, həmin malı xarici saytlar vasitəsilə sifariş verir və əldə edir. Bunun isə dövlətə heç bir xeyri olmur. Onlayn ticarətin xüsusiyyətlərindən biri odur ki, həmin satış vasitəsilə satış xərcləri aşağı olur və daha çox alıcını əhatə etmək mümkündür. Bu isə həmin ticarətin rəqabət üstünlüyünə və gələcək inkişafına zəmin yaradır».

R.Əliyev bildirdi ki, bütün dünyada onlayn ticarət sektorunun getdikcə genişlənməsi səbəbindən vergi siyasəti daim təkmilləşdirilir: «Bu sahədə əsasən iki əsas problem var. Birincisi, ticarət aparan şəbəkənin ölkə xaricində yerləşməsi ilə əlaqədardır. Bu isə onların birbaşa vergiyə cəlb edilməsində əngəllər yaradır. Bu problem Azərbaycanda da aktualdır. İkinci problem isə ölkə daxilində internet üzərindən ticarət quran şəxslərin vergiyə cəlb edilməsi ilə əlaqədardır. Bu, çox ciddi məsələlərdən biridir. Bizdə sosial şəbəkələr üzərindən ticarət quranlar kifayət qədərdir.

***Hazırladı:***
**F. İKRAMQIZI**

# İqtisadi sahədə baş verən dəyişikliklər vergi sisteminin təkmilləşdirilməsinə ehtiyac yaradır



İsveçrə Əməkdaşlıq Ofisi İsveçrə hökuməti və İsveçrə İqtisadi İşlər üzrə Dövlət Katibliyinin (SECO) Azərbaycanda həyata keçirdiyi layihələri koordinasiya etməklə ölkələrimiz arasında birgə əməkdaşlığın güclənməsinə töhfə verir. Müsahibimiz ofisin regional direktor müavini xanım Simona Haberlindir.

**- Xanım Haberlin, İsveçrə ilə Azərbaycan arasında iqtisadi münasibətlərə ümumi qiymət verməli olsanız, mənzərəni necə təqdim edərdiniz? İsveçrə şirkətləri Azərbaycan iqtisadiyyatının hansı sahələrində təmsil olunurlar?**

- Azərbaycan və İsveçrə arasında mövcud münasibətlər yüksək səviyyədədir. Hər iki ölkənin dövlət qurumları arasında sıx və etibarlı əlaqələr qurulmuşdur. Əməkdaşlıq strategiyasına əsasən İsveçrə Azərbaycanda iqtisadi inkişaf layihələrinə öz dəstəyini göstərir. 20 ildən artıqdır ki, Azərbaycanda fəaliyyət göstərən İsveçrə şirkətlərinin əsas istiqamətlərini qeyri-neft sektoru təşkil edir. Qaradağdakı «Holcim», Sumqayıt Kimya Texnologiyaları Parkındakı «SİKA» şirkətləri qeyri-neft sektorunda fərqlənən aparıcı investorlardandır. «ABB» şirkəti sənaye sektorunda avtomatlaşdırma sahəsində uğurlu işlər görür. İnfrastruktur sahələrinin bərpası və yenidən qurulmasında, müasir texnologiyaların Azərbaycana gətirilməsində də bizim şirkətlərin rolunu qeyd etmək olar. İsveçrənin istehsal etdiyi «Stadler» qatarları Azərbaycanın nəqliyyat infrastrukturunun müasirləşməsinə öz töhfəsini verir. Ölkənizdə şəxsiyyət vəsiqələrinin çap işləri də İsveçrə şirkətinə məxsusdur.

Uğurlu əməkdaşlığımızın mühüm istiqamətlərindən biri də enerji və neft sənayesidir. Bunun yaxşı bir nümunəsi də Azərbaycanın İsveçrədə öz sərmayələrini artırmasıdır. Hazırda «SOCAR» və «SOCAR Trading» şirkətləri İsveçrə bazarında aktiv investorlardan biri kimi tanınır.

**- İsveçrə hökumətinin və nüfuzlu iqtisadi agentliklərin təmsilçisi kimi, ofisiniz uzun müddətdir ki, Azərbaycanda inklüziv və dayanıqlı iqtisadi inkişaf proqramlarında iştirak edir. Əməkdaşlığın əsas istiqamətləri hansı sahələri əhatə edir?**

- Ofisimiz birgə texniki əməkdaşlıq proqramı çərçivəsində 20 ildir ki, Azərbaycanda yüksək biliklərə əsaslanan idarəetmənin qabaqcıl standartlara uyğunlaşdırılması üzrə müxtəlif layihələr həyata keçirir. Onların sırasında dövlət maliyyə inzibatçılığının təkmilləşdirilməsi, maliyyə sektorunun tənzimlənməsi və nəzarətin artırılması, monetar sektor və digər iqtisadi sahələrdə həyata keçirilən layihələri qeyd etmək olar. Biz, həmçinin, özəl sektor üçün daha əlverişli şəraitin, o cümlədən dayanıqlı maliyyə infrastrukturunun və sərmayə cəlbediciliyi mühitinin yaradılmasına dəstək veririk. Sahibkar qadınların fəaliyyətinin və biznesdə rolunun, maliyyə savadlılığının artırılmasına diqqət yetiririk.

İsveçrə hökuməti, əsasən, Dünya Bankı və onun qurumları, Beynəlxalq Valyuta Fondu kimi qlobal səviyyədə yüksək nüfuza malik maliyyə qurumları ilə birgə işləyir, çünki həmin qurumlar əməkdaşlıq etdiyi ölkələrin iqtisadi idarəetmə və institusional sahələrdə hansı islahatlara ehtiyacı olduğunu daha yaxşı bilir, bu sahədə təcrübəyə malikdir. İsveçrə İqtisadi İşlər üzrə Dövlət Katibliyi hazırda iki əsas sahə (makroiqtisadi və özəl sektor) üzrə fəaliyyət göstərir. Makroiqtisadi sahəyə dəstək proqramı çərçivəsində Maliyyə Nazirliyi, Mərkəzi Bank, İqtisadiyyat Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası və digər qurumlarla yaxından əməkdaşlıq qurulub.

Müasir dövrdə əsas iqtisadi çağırışlardan biri hər bir ölkə üçün makroiqtisadi inkişaf proqnozlarının tərtibi ilə bağlıdır. Bu baxımdan, maliyyə proqramına dəstək verən mütəxəssislərimiz mürəkkəb proqnozların hazırlanması sahəsində öz təcrübələrini bölüşürlər. Azərbaycanda dövlət borcunun idarə olunması strategiyasının hazırlanmasına da mütəxəssislərimiz kömək göstəriblər və sənəd bu ilin avqust ayında Azərbaycan Prezidenti tərəfindən təsdiq edilib. Hazırda dövlət borcunun idarə olunmasının texniki məsələləri və proqram təminatının quraşdırılması üzrə Maliyyə Nazirliyi ilə işbirliyimiz davam edir.

Əməkdaşlığımızın digər istiqaməti statistikanın qurulmasıdır. Biz dövlət maliyyə statistikası sahəsində BVF-nin standartlarına cavab verən yanaşmanı prioritet seçmişik.

**- Elektron ödənişlər sahəsində Avropanın lider ölkələrindən sayılan İsveçrə Azərbaycanda nağdsız cəmiyyətin qurulmasında hansı dəstəyi göstərə bilər?**

- Biz bank sektorunda müasir alətlərin və xidmət çeşidlərinin tətbiqinə, elektron ödəmə sisteminə xüsusi önəm veririk. Bu sahədə Azərbaycanla əməkdaşlıq edirik və artıq innovativ layihələrdən olan «Mobil Pul» (Mobile Money) sisteminin tətbiqinə başlamışıq. Pilot layihə kimi Naxçıvan Muxtar Respublikasını seçmişik və hazırda layihə nəzərdə tutduğumuz xətt üzrə davam edir. Əgər bu layihə uğurla başa çatsa, digər regionlarda da davamı olacaq, beləliklə də mobil telefonlar vasitəsilə ödənişlərin aparılması sisteminin bütün ölkədə tətbiqi mümkünləşəcək. Yeri gəlmişkən, əhalinin bank məhsullarına çıxışının asanlaşdırılması üzrə də iş aparırıq və həmin sahədə vəziyyətin tənzimlənməsinə məsul olan Maliyyə Bazarlarına Nəzarət Palatasına dəstəyimizi əsirgəməmişik. «Banklar haqqında» Qanunun 2017-ci ildə qüvvəyə minmiş yeni variantının hazırlanmasında da mütəxəssislərimizin az əməyi olmayıb. Özəl Kredit Bürosunun yaradılması, daşınan əmlakın qeydiyyatının müasirləşdirilməsi üzrə qanunvericiliyin hazırlanmasında SECO şirkəti və Beynəlxalq Maliyyə Korporasiyası iştirak edib. Əminik ki, bu cür layihələr Azərbaycanda bank kreditlərinin əldə olunması sistemini təkmilləşdirəcəkdir.

**- Azərbaycan Respublikasının Vergilər Nazirliyi çoxtərəfli əməkdaşlığa böyük əhəmiyyət verir. Hazırda SECO ilə birgə həyata keçirilən layihə vergi sisteminin inkişafı istiqamətində hansı töhfəni verə bilər?**

- Azərbaycanın vergi sistemi haqqında məlumatlıyam. Bu, müsbət tendensiyadır. Vergilər nazirinin və onun heyətinin zəruri və çətin olan islahatlara qərar vermələrini müşahidə etdim. Biz vergi siyasəti və vergi inzibatçılığı sahələrində nazirliklə əməkdaşlıq edə bilərik. Sadələşdirilmiş verginin tətbiqi bütövlükdə biznes fəaliyyətinin genişləndirilməsi üçün yaxşı yanaşmadır, ancaq ƏDV ödəmək istəməyən şirkətlər tərəfindən bu sahədə sui-istifadə halları baş verə bilər. Buna görə də həmin məsələdə vergi rejiminə diqqətlə baxılmalıdır. Bundan başqa, əmək vergisinə də yenidən baxılmalıdır ki, işəgötürənlər işçilərin real əməkhaqlarını əks etdirən müqavilələr təqdim etsinlər. Əgər əməkhaqqı müqavilədə öz əksini düzgün tapmırsa, bu, gələcəkdə işçinin təqaüdünə mənfi təsir göstərəcəkdir.

> Sadələşdirilmiş verginin tətbiqi bütövlükdə biznes fəaliyyətinin genişləndirilməsi üçün yaxşı yanaşmadır, ancaq ƏDV ödəmək istəməyən şirkətlər tərəfindən bu sahədə sui-istifadə halları baş verə bilər

Bütövlükdə isə hesab edirəm ki, Azərbaycanda vergi mədəniyyətinə baxış dəyişməlidir. Hər iki tərəfi nəzərdə tuturam: vergi inzibatçılığı təkmilləşdirilməlidir, vergi ödəyicisinin isə vergi sisteminə olan yeni münasibəti formalaşdırılmalıdır. Vergilər dövlət büdcəsinin ən vacib gəlir mənbəyidir. Dövlət də öz növbəsində vergi ödəyicilərini inandırmalıdır ki, onların ödədiyi vəsait düzgün istiqamətdə xərclənir.

**- Azərbaycanın vergi sistemində hansı qabaqcıl beynəlxalq təcrübənin tətbiqini zəruri hesab edirsiniz?**

- İqtisadi sahədə baş verən dəyişikliklər hər bir ölkənin vergi sisteminin inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə ehtiyac yaradır. Xüsusilə də rəqəmsallaşma prosesində bu, daha çox zəruridir. Vergi sistemi şəffaf və proqnozlaşdırılan olmalıdır. Bəzən şirkətlər ödəyəcəkləri məbləğin həcmini və dəqiq ödənişin vaxtını bilmirlər və bu da səmərəli biznes planlaşdırmasına mane olur, kölgə iqtisadiyyatını təşviq edir. Vergi yoxlamalarının daha yaxşı tənzimlənməsinə ehtiyac var. İsveçrədə gəlir vergisi bəyannaməsinin yoxlanılması üçün insan faktorundan deyil, alqoritmlərdən istifadə edilir. Alqoritmin tətbiqi çox səmərəlidir, burada bütün proses yalnız texnika vasitəsilə həyata keçirilir, insan müdaxiləsinə ehtiyac qalmır. Həmin sistemin mühüm üstünlüyü həm də ondadır ki, dələduz vergi ödəyicisi mütləq ifşa edilir.

Vergilərin əməkhaqlarından avtomatik çıxılmasında Skandinaviya ölkələrinin böyük təcrübəsi var. Orada insanlar hər zaman sərəncamlarında nə qədər pul olduğunu bilirlər. Azərbaycanda da oxşar sistem mövcuddur, lakin qeyd etdiyim kimi, real əməkhaqqının düzgün bəyan edilməməsi, hələ ki, problem olaraq alır...

*Müsahibəni hazırladı:*
**Elbrus CƏFƏRLİ**

# Qeyri-neft sektoruna sərmayə qoyuluşu

**2018-ci ilin ilk doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard ABŞ dolları həcmində sərmayə qoyulub və həmin vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna yönəldilib**

Qeyri-neft sektorunun inkişafında və investisiya qoyuluşlarında stimullaşdırıcı və təşviqedici siyasətin yürüdülməsi mühüm rol oynayır. Vergi Məcəlləsinə və «Gömrük tarifi haqqında» Qanuna görə, ölkə iqtisadiyyatı üzrə prioritet hesab olunan sahələrdə investisiya fəaliyyəti həyata keçirən hüquqi şəxslər və fərdi sahibkarlar investisiya təşviqi sənədi aldıqları andan idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular 7 il müddətinə gömrük rüsumundan azad olunub. Bu təşviqedici mexanizm iqtisadiyyata yerli və xarici investisiyanın cəlb olunmasına, eyni zamanda investisiya vəsaitlərinin həcminin artmasına gətirib çıxarıb. İxrac təşviqi siyasətinin həyata keçirilməsi qeyri-neft sahələrində istehsalın və ixracın səviyyəsinin yüksəlməsinə təkan verib. 2018-ci ilin ilk 9 ayında sahibkarlara 3 milyon manata yaxın ixrac təşviqi vəsaiti ödənilib və bunun sayəsində ixracın həcmi 37% artıb.

### Xarici sərmayələrin həcmində yüksəliş var

2018-ci ilin 9 ayı ərzində Azərbaycanın qeyri-neft sektoruna əcnəbi sərmayəçilər tərəfindən 2 milyard dollara yaxın investisiya qoyulub. Xarici investorlar sırasında Türkiyə, Rusiya, İsveçrə, Böyük Britaniya, Niderland əsas yer tutur. Qeyri-neft sektoru üzrə investisiya qoyuluşunun 35%-i Avropa İttifaqı ölkələrinin payına düşür. Sərmayəçilərin kapital qoyuluşları əsasən ticarət, xidmət, tikinti, sənaye, nəqliyyat, bank və sığorta, rabitə, kənd təsərrüfatı və digər sahələri əhatə edir. Həmin kapitalın 90%-i iqtisadiyyatda yeni istehsal sahələrinin yaradılmasına və biznesin inkişafına yönəldilib.

Ölkədə biznesin qeydiyyatının sadələşdirilməsi, investisiyalarla bağlı prosedurların təkmilləşdirilməsi, vergi yükünün azaldılması, investorların hüquqlarının müdafiəsinin işlək mexanizmlərinin yaradılması və əlverişli biznes mühitinin təmin edilməsi Azərbaycanda fəaliyyətə başlayan xarici şirkətlərin sayının da artmasına şərait yaradır. Bunun nəticəsidir ki, 2018-ci ilin yanvar-avqust ayları ərzində vergi orqanlarında 940 xarici şirkət qeydiyyatdan keçib.

Dövlət başçısının 2018-ci ilin yanvar ayında imzaladığı «İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında» sərəncamda qeyd edilib ki, iqtisadiyyata qoyulan investisiyanın həcminin artırılması məqsədilə bu sahədə islahatların genişləndirilməsi, xüsusilə özəl təşəbbüskarlığın dəstəklənməsi istiqamətində biznesin investisiya mühitinin daha da yaxşılaşdırılması, həmçinin investisiyaların qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi əsas prioritetlərdəndir.

### Qeyri-neft sektoru üzrə vergi daxilolmaları artıb

İqtisadiyyat Nazirliyinin məlumatına əsasən vergi daxilolmaları bazasının genişləndirilməsi, respublikanın şəhər və rayonları üzrə gəlir və xərclərin tarazlaşdırılması, neftdənkənar sahələrdə iqtisadi fəallığın yüksəlməsi, qeyri-neft sektoruna investisiya qoyuluşlarının artması, ölkədə yeni müəssisələrin yaradılması qeyri-neft bölmələrindən daxil olan vergilərin həcminin artımına da ciddi təsir göstərib. 2018-ci ilin ilk 9 ayı üzrə büdcə proqnozlarında vergi daxilolmalarının 65,8%-i qeyri-neft sektorunun payına düşüb. Bu sahədə özəl bölmənin də payı əhəmiyyətli dərəcədə artaraq, ötən ilin müvafiq dövründəki 52%-dən 59%-ə yüksəlib.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Energetika Nazirliyinin təşəbbüsü, bir sıra dövlət qurumları və xarici ekspertlərin iştirakı ilə Finlandiyanın «Vartsila» korporasiyası tərəfindən «Ağıllı enerji/Gələcək enerji sistemi» mövzusunda seminar keçirilib.

Avropa Bank Federasiyasının assosiativ üzvlərinin 48-ci iclası Bakıda keçiriləcək.

Qətərin paytaxtı Doha şəhərində keçirilən «Birinci beynəlxalq məhsullar» sərgisində Azərbaycanda istehsal edilən məhsullar da təqdim olunur.

Almaniyanın «Travellers Archive» turizm internet jurnalında Azərbaycana dair «bələdçi» tipli geniş məqalə dərc edilib.

«Made in Azerbaijan» brendinin təşviqi məqsədilə inşaat və tikinti materiallarının, qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən 29 şirkətin Qazaxıstana ixrac missiyası çərçivəsində Azərbaycanın «Şərq ulduzu» və «Merit Brand» şirkətləri Qazaxıstan şirkəti ilə spirtli içkilərin ixracına dair razılığa gəliblər.

Oktyabrın 16-da - Ümumdünya Ərzaq Günündə Moskvada Azərbaycan şərablarının dequstasiyası təşkil edilib.

# «ASAN viza 2» modeli hazırlanır

Azərbaycanda 2017-ci ilin may ayından tətbiq olunan «ASAN viza» sistemi respublikamıza gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza verilməsi prosedurunun asanlaşdırılmasında və turistlərin sayının artmasında mühüm rol oynayıb. «ASAN xidmət» yanında Elektron Hökumətin İnkişafı Mərkəzinin direktoru Fariz Cəfərov bildirib ki, «ASAN viza» portalı və terminalları vasitəsilə indiyədək 800 min əcnəbi turistə viza verilib. Azərbaycana gəlmək istəyən şəxslər elektron vizanı əldə etmək üçün bu portal üzərindən zəruri məlumatları daxil edərək, dövlət rüsumunu həmin sistemlə elektron qaydada ödəyirlər. Elektron viza üç iş günü müddətində müraciət etmiş şəxsin elektron ünvanına göndərilir. İndiyədək portal vasitəsilə 95 ölkəyə elektron viza verilib. Portalda qeydiyyatdan keçən əcnəbilər Azərbaycana gəldikdə hava limanında «ASAN viza» özünəxidmət terminalları vasitəsilə vizanı rəsmiləşdirirlər.

F.Cəfərov qeyd edib ki, «ASAN viza» portalı və özünəxidmət terminalları 9 dildə - Azərbaycan, ingilis, fransız, ispan, alman, italyan, ərəb, fars və rus dillərində fəaliyyət göstərir. Özünəxidmət terminalları elektron ödəmələr üçün POS- terminallarla təmin olunub.

«ASAN viza»nın tətbiqi Azərbaycanın beynəlxalq viza indekslərində də mövqeyinin yaxşılaşmasına səbəb olub. «Henley & Partners» şirkətinin keçirdiyi «Viza məhdudiyyətləri indeksi - 2018» hesabatında viza qaydalarının təkmilləşdirilməsi, e-vizaların verilməsi və digər texniki-hüquqi məsələlərin həllində mühüm addımlar atan Azərbaycan 5 pillə irəliləyib. Bu sahədə əldə olunan nailiyyətlərin davamı kimi, turizmin inkişafını sürətləndirmək üçün növbəti addım «ASAN viza 2» modelinin tətbiqidir. Bu platforma viza rejiminin daha da asanlaşdırılması ilə Azərbaycandan xarici ölkələrə maneəsiz getməyi nəzərdə tutur.

**E.CƏFƏRLİ**

## İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

## Əmək müqaviləsinin rəsmiləşdirilməsi

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən «ASAN imza»sı olmalıdır. «ASAN imza» SİM kartını mobil operatorların («Azercell», «Bakcell», «Nar Mobile») nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə «ASAN imza» sertifikatı ala bilərsiniz.

**İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:**

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə **1.000 manat** məbləğində maliyyə sanksiyası tətbiq edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər **1.000 manatdan** **2.000 manatadək** miqdarda, vəzifəli şəxslər **3.000 manatdan** **5.000 manatadək** miqdarda, hüquqi şəxslər **20.000 manatdan** **25.000 manatadək** miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br><br>Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | **7.000** manatdan **10.000** manatadək miqdarda cərimə və ya **2 ilədək müddətə islah işləri** və ya **2 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır.<br><br>**3 ilədək müddətə azadlığın məhdudlaşdırılması** və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

**Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və «195-1»Çağrı Mərkəzindən əldə edə bilərsiniz.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# İşsizlikdən sığorta sistemi təkmilləşdiriləcək

**Azərbaycan hökuməti işsizlik sığortası hesabına işə yeni qəbul edilən işçilərin əməkhaqqının bir hissəsinin dövlət tərəfindən ödənilməsi qaydalarına yenidən baxmağa hazırlaşır. Buna səbəb həmin yeniliyə sahibkarların maraq göstərməməsi olub.**

Xatırladaq ki, yeni qaydalara əsasən, işə bir sıra təbəqələrdən olan işçilərin qəbulu zamanı ödənilən əməkhaqqının 50%-ə qədərini dövlət ödəyəcəkdi. Burada əsas məqsəd məşğulluğun artırılması və bəzi kateqoriyaların sosial müdafiəsini gücləndirməkdir. Amma ilk baxışdan cəlbedici görünsə də, Azərbaycanın iş adamları və şirkətləri bu sistemə maraq göstərməyiblər. Dövlət Məşğulluq Xidmətinin məlumatına görə, indiyədək bu yeniliyin tətbiqi üçün müraciət edən iş adamı olmayıb.

Mütəxəssislərin rəyinə görə, bunun səbəbi həmin qaydalarda bir sıra sərt tələblərin olmasıdır. Qaydalara görə, proqramda yalnız o şirkətlər iştirak edə bilər ki, işçilərinin 40 faizinin xüsusi dəstəyə ehtiyacı olsun. Buraya əlillər, məcburi köçkünlər, 20 yaşınadək gənclər, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslər, pensiya yaşına 2 il qalmış vətəndaşlar, əlil uşaqları olan valideynlər aiddir. İşçilərinin 40 faizini belə insanlar təşkil etməyən şirkətlərin isə proqramda iştirak etmək hüququ olmur. Bundan başqa, şərtlərə görə, proqramda iştirak etmək istəyən şirkətlər ən azı son bir ildə fəaliyyət göstərmiş olmalı, son bir il müddətində işçi sayında ixtisar etməməli, ümumiyyətlə, son bir ildə bu şirkətdə heç kim işdən çıxarılmamalı, vergi borcları və digər öhdəlikləri olmamalıdır.

Müşahidələr göstərir ki, bu tələblərə cavab verən şirkətlər, demək olar ki, yox səviyyəsindədir. Çünki heç bir şirkətdə işçilərin 40%-i göstərilən təbəqəyə aid deyil, üstəlik, son bir ildə bir işçini belə, nəinki ixtisar, hətta hər hansı səbəbdən işdən çıxarmayan şirkət tapmaq müşkül məsələdir. Buna görə də hazırda yeni qaydalarda bir sıra dəyişikliklərin edilməsi, bu istiqamətdə müəyyən təkmilləşdirmə işlərinin aparılması hökumətin gündəliyində duran məsələlərdəndir.

İqtisadçı ekspert Vüqar Bayramov məsələyə açıqlama verərək bildirib ki, burada söhbət daha çox gənclərin işlə təmin olunmasından gedir: «Əslində, bu, xüsusilə sahibklarlar və dövlət üçün cəlbedici mexanizmdir. Dövlət sahibkarları, gəncləri və digər bu kimi kateqoriyadan olan vətəndaşları işə cəlb edən zaman əməkhaqqının 50 faizini özü ödəyir. Bu da nəticə etibarilə sahibkarları stimullaşdırır ki, onlar həmin şəxslərin işə cəlb edilməsində maraqlı olsunlar».

V.Bayramov qeyd edib ki, sistem yeni olduğu üçün hələ formalaşma mərhələsindədir və ona görə də ondan istifadə edənlərin sayında ciddi bir artım gözləmək düzgün deyil: «Yeni qaydaların təqdim və təbliğ edilməsinə ehtiyac var. Sahibkarların maarifləndirilməsi və təşviq edilməsi vacibdir. Digər tərəfdən isə sistemin təkmilləşdirilməsinə ehtiyac var. Güzəştli müddətin uzadılması daha məqsədəuyğun olardı. Burada xüsusən də iş yerlərinin sektorlar üzrə qruplaşdırılması və fərqli güzəştlərin təbliğ edilməsi zəruridir. Güman edirəm ki, həssas qrupları, o cümlədən gəncləri daha çox işə cəlb edən sahibkarlar üçün əlavə güzəştlərin tətbiq edilməsi və xüsusən onların güzəştli kreditlərə çıxış imkanlarının artırılması məqsədəuyğun olardı. Gələcəkdə bu sistemin təkmilləşdirilməsi sahibkarlarla dövlət qurumları arasında tərəfdaşlığın gücləndirilməsinə, gənclərin məşğulluğunun artmasına gətirib çıxaracaqdır».

Məcburi dövlət sosial sığortası məqsədləri üçün «Sosial sığorta haqqında» Qanunun 13-cü maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna uçota alınmış sığortaedənlər işsizlikdən sığorta məqsədləri üçün Fondda qeydiyyata alınmış hesab edilirlər.
Sığortaedənin məcburi dövlət sosial sığortası məqsədləri üçün Fond tərəfindən verilmiş uçot nömrəsi eyni zamanda onun işsizlikdən sığorta məqsədləri üçün qeydiyyat nömrəsi hesab edilir.
İşsizlikdən sığorta haqqı - hesablanmış əməyin ödənişi fondunun 0,5 faizi və işçinin əməkhaqqının 0,5 faizi miqdarında sığortaedən tərəfindən ödənilir.
«İşsizlikdən sığorta haqqında» Azərbaycan Respublikası Qanunu ilə işsizlikdən sığorta haqqının hesablanmasından azadolma müəyyən edilməyib.
Hər ay üçün hesablanmış işsizlikdən sığorta haqqı sığortaedən tərəfindən əməkhaqqı ödənişləri ilə eyni vaxtda, lakin sonrakı ayın 15-dən gec olmayaraq, tam məbləğdə Fonda ödənilir.
İşçilərin işsizlikdən sığorta etdirilməməsinə, sığorta haqqının hesablanmasının və köçürülməsinin uçotunun düzgün aparılmamasına və bu barədə sığortaçıya hesabatın təqdim edilməməsinə, sığorta haqqının vaxtında köçürülməməsinə görə inzibati qaydada məsuliyyət tədbirləri nəzərdə tutulub.

**F. İKRAMQIZI**

# Dünya təcrübəsi: vahid gəlir vergisi

**Bu gün dünyanın bütün ölkələrində real əməkhaqqı məbləğinin gizlədilməsi, olduğundan az həcmdə rəsmiləşdirilməsi halları mövcuddur. Bu kimi vergidən yayınma hallarına əsasən restoran biznesi, nəqliyyat, pərakəndə və topdansatış sahələrində, tikinti və təmizlik xidmətlərində daha çox rast gəlinir. Problemin qarşısının alınması vergi orqanları ilə birgə sosial sığorta yığımlarını həyata keçirən qurumların da başlıca vəzifəsidir.**

Beynəlxalq təcrübədə hökumətlər qeyri-real əməkhaqqı məbləğləri ilə mübarizədə bir sıra üsullardan istifadə edirlər. Bura audit yoxlamaları, maaşların «zərfdə» verilməsinin ləğvi, vergi məlumatlarının ictimailəşdirilməsi və s. kimi bir sıra tədbirlər daxildir. Məsələn, maaşların «zərfdə» verilməsi ilə mübarizədə tam fərqli iki yoldan - «birbaşa» və «dolayı» yanaşma üsullarından istifadə edilir. «Birbaşa» yanaşma cərimələrin artırılması və qeyri-qanuni əməkhaqqı ödənişi ilə mübarizə vasitələrinin təkmilləşdirilməsini, «dolayı» yanaşma isə işçilərin və işəgötürənlərin qanunvericiliyə və dövlət institutlarına inamlarının artırılmasını nəzərdə tutur. Birinci yanaşmanın tətbiqi vergidən yayınma hallarının səbəblərini deyil, nəticələrini aradan qaldırır. İkinci yanaşma isə qarşılıqlı etimada söykənən münasibətlərin formalaşması üçün işəgötürənlərə və işçilərə əməkhaqqı məbləğinin tam şəkildə bəyan edilməsinin faydaları, gələcəkdə ödədikləri verginin müqabilində alacaqları ödənişsiz xidmətlərə dair maarifləndirmə tədbirlərinin təbliğini nəzərdə tutur.

Bir çox ölkələrdə bəyan edilməyən əməkhaqqı ilə mübarizədə tətbiq olunan klassik üsullardan biri müəssisənin cari və ya keçmiş əməkdaşları ilə səlahiyyətli orqanın müsahibə aparması, nəticədə müəssisədə qeyri-rəsmi əməkhaqqı ödənişlərinin aşkar edilməsidir. Bununla yanaşı, audit yoxlaması, müəssisənin vakansiya elanlarında vəd etdiyi əməkhaqqı məlumatları, əməkdaşın kredit üçün banka təqdim etdiyi arayışda göstərilən əməkhaqqı məlumatları da qeyri-rəsmi əməkhaqqı ödənişini müəyyən etmək üçün mənbə kimi istifadə olunur. Bundan başqa, səlahiyyətli orqanın müxtəlif peşəkar assosiasiyalara üzv olmaqla ölkənin biznes mühitində baş verən məlumatları yaxından izləməsi təcrübəsinə də rast gəlinir.

---

## Rusiya

Bəyan edilən əməkhaqqı məbləğlərinin real əməkhaqqından az rəsmiləşdirilməsinə görə qeyri-rəsmi ödəniş uçotunun müəyyən olunması, internet səhifələrində yerləşdirilən vakansiya elanları, fiziki şəxslərin gəlirini tətbiq edən arayışlar araşdırılır. Əgər işçiyə qeyri-rəsmi ödəniş edilirsə, bu ödənişlərin müəssisədə uçotu aparılır. Həmin məlumatlar, - rəsmi əməkhaqqından kənar nağd əməkhaqqının alınması hallarında, - məhkəmə və ya yoxlama zamanı sübut kimi irəli sürülməsi üçün istifadə edilə bilər. Müəssisənin yerləşdirdiyi elanlarda vəd olunan əməkhaqqı ilə analoji sahədə çalışan əməkdaşların əməkhaqları qarşılaşdırılır.

Qeyri-rəsmi gəlir əldə edən şəxs kreditin alınması üçün banka təqdim etdiyi arayışda «Fiziki şəxslərin gəlir vergisi arayışı» formasında qeyd olunan əməkhaqqının işəgötürən tərəfindən ödənilən rəsmi əməkhaqqı səviyyəsindən yuxarı olduğu aşkar edildikdə, Federal Vergi Xidməti əməkdaşları tərəfindən vergidən yayınma halı üçün əsas ola bilər.

Gəlirlər haqqında məlumatlarda əvvəlki iş yerində ödənilən əməkhaqqı ilə hazırkı əməkhaqqı arasında əhəmiyyətli dərəcədə fərqin az olması müəyyən edilərsə, məsələn, büdcəyə ödənilən fiziki şəxslərin gəlir vergisi məbləğində əvvəlki vergi dövrü ilə müqayisədə ən az 10% azalma aşkar olunarsa Federal Vergi Xidmətində «zərfdə» maaşın alınmasına dair şübhələr yarana bilər.

## Estoniya

Vergi və Gömrük İdarəsinin 2017-ci ildə qəbul etdiyi strategiyada bəyan edilməyən əməkhaqları ilə əlaqədar işəgötürənlərə nəzarət tədbirləri nəzərdə tutulub. Əməkdaşlıq və partnyorluq çərçivəsində araşdırmalar göstərir ki, qeyri-rəsmi əməkhaqqı ödəyən şirkətlərin böyük bir qismi adətən ən çox 10 işçisi olan kiçik müəssisələrdir. Vergi administrasiyası bu problemin həlli üçün sosial tərəfdaşlar və müxtəlif biznes sahələrində səlahiyyətlərə malik təşkilatlarla əməkdaşlıq edir. Əsas məqsəd biznes sektorunu dərindən öyrənmək, bu sahədə rəsmi və qeyri-rəsmi məlumatlara yiyələnməkdir.

Vergi məlumatları ictimailəşdirilir, rübdə bir dəfə ümumi vergi məlumatları (dövriyyə, ödənilən vergilər, işçilərin sayı) bərabər və ədalətli biznes mühitinin dəstəklənməsi üçün vergi orqanı tərəfindən ictimaiyyətə açıqlanır, fərdi və profilaktik məsləhətləşmələr keçirilir. Vergi auditi aparılaraq yuxarı risk qiymətləndirməsi olan və pozuntu hallarını təkrarlayan işəgötürənlər intensiv nəzarətə cəlb edilir.

## Litva

Dövlət Vergi Müfəttişliyi apardığı audit yoxlaması nəticəsində bəyan edilməmiş əməkhaqqı ödənişi müəyyən edirsə, bu halda ödənilməyən vergi və sosial sığorta məbləği və qanunla müəyyən olunmuş sanksiya hesablanır. Yoxlama üçün risk indikatoru kimi müəssisədə işləyən şəxslərin ölkə üzrə minimum əməkhaqqı məbləği alması və ya oxşar sahələrdə təklif olunan əməkhaqqı məbləğindən əhəmiyyətli dərəcədə az gəlir əldə edən işçilərin olması götürülür. Sanksiyanın məbləği qanun pozuntusundan və vergi ödəyicisinin könüllü etiraf etməsindən asılı olaraq, bəyan edilməyən məbləğin 10-50% həcmində müəyyən olunur.

## Çexiya

Əməkhaqqının bir hissəsinin nağd şəkildə verilməsinə, əsasən, restoran, nəqliyyat, pərakəndə və topdansatış, bina tikintisi və təmizlik xidmətlərində rast gəlinir. «Agentlik məşğulluğu» adlandırılan məşğulluq (potensial işçilər digər qurumlar üçün işçi axtaran agentliklərlə əmək müqavilələri bağlayırlar) hazırda Çexiya Respublikasında böyük problemdir. Bu ad altında rəsmi maaş daha az məbləğdə bəyan edilir, əməkhaqqının bir qismi nağd formada, yaxud vergi tutulmayan səyahət xərcləri qismində verilir. Maaşın zərfdə verilməsi qanunvericiliyə zidd olsa da, əməkhaqqı işçiyə nağd formada hər hansı sənəd və ya sübut olmadan verildiyinə görə, onu aşkarlamaq mürəkkəb məsələdir.

## Macarıstan

Vergi orqanına işçilər haqqında təqdim olunan məlumatlarla sosial sığorta qurumundan eyni işçilərə dair ödənişlərin edilib-edilməməsi məlumatları qarşılaşdırılır. Audit zamanı vergi ödəyicisinin qeyri-rəsmi əməkhaqqı ödədiyi və ya fəaliyyətində qeyri-qanuni əmək fəaliyyəti şübhəsi olduqda, həmin işçi haqqında məlumatlar RIASZT adlanan risk menecmenti proqram təminatına daxil edilir. Bununla da işçinin karyerasında sonrakı dəyişikliklər təqib olunur.

## Bolqarıstan

Bəyan edilməyən əməkhaqqı ödənişlərinin qarşısının alınması məqsədilə icbari sosial sığorta ödənişlərinin tutulduğu gəlirin müəyyən olunması üçün vergi bazası müəyyən edilir.

## İqtisadçının rəyi belədir ki...

Azərbaycanda da bəyan edilən əməkhaqqı məbləğlərinin real əməkhaqqından az rəsmiləşdirilməsinin risk indikatorlarının müəyyən edilməsi məqsədilə müəyyən işlər görülür, qanunvericilikdə bu istiqamətdə bir sıra təkliflər hazırlanır.

İqtisadçı ekspert Fikrət Yusifov bildirib ki, bu problemə daha çox dünyanın inkişaf etməkdə olan ölkələrində rast gəlinir. Onun qarşısını tam almaq, demək olar ki, mümkün deyil. Görülən tədbirlər isə, bir qayda olaraq, vəziyyəti neytrallaşdırmağa və faktiki əməkhaqqı ilə rəsmi əməkhaqqı arasındakı uyğunsuzluğu minimum həddə endirməyə hədəflənib: «Lakin inzibati tədbirlərin səmərəsi adətən 15-20%-dən çox olmur. Məsələn, müstəqilliyimizin ilk illərində bizim də rastlaşdığımız ən ciddi problemlərdən biri əməkhaqqının «zərf» qaydasında ödənişi hesabına baş verən vergidən yayınma halları idi. Bu vəziyyət, demək olar ki, bütün müəssisələrdə mövcud idi. Əməkhaqqından vergilərin proqressiv şkala ilə tutulması mövcud vəziyyəti daha da çətinləşdirirdi. Vergi islahatları və gəlir vergisinin tutulmasında vahid vergi dərəcəsinin tətbiqi bu vəziyyəti bir xeyli nizama salmağa imkan verdi. Məsələyə yenidən qayıtmaq və mövcud vergitutma sistemini təkmilləşdirmək yolu ilə problemi həll etmək həmişə aktualdır».

*Hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

## 2018-ci ilin oktyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2018-ci ilin sentyabr ayı üzrə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsini;
- Aksiz bəyannaməsini;
- Yol vergisi bəyannaməsini;
- Mədən vergisi bəyannaməsini;
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini;
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini

**cari ilin oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Daşınmaz əmlak** təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi notariuslar tərəfindən **cari ilin oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2018-ci ilin 3-cü rübünə görə vergi ödəyiciləri tədiyyəçisi olduqları**

- **Sadələşdirilmiş verginin bəyannaməsini** və
- **Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini**

cari ilin **oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

- **Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi** *(ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olunmaqla)* cari ilin **oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir *(ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər)*.
- **Xüsusi notariusların gəlir vergisi bəyannaməsi** cari ilin **oktyabr ayının 22-dən gec olmayaraq** vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- **Dövlət rüsumu haqqında hesabat** cari ilin **oktyabr ayının 22-dək** vergi orqanına təqdim edilməlidir; notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək **2 bank günü**, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu **1 ay**, digər dövlət rüsumları isə tutulduqdan sonra **1 bank günü** ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2018-ci ilin **3-cü rübü üzrə hesablanmış** cari ödəmələr **oktyabr ayının 15-dən gec olmayaraq** dövlət büdcəsinə ödənilməlidir.

**Qeyd:** 20.10.2018-ci il tarixi qeyri-iş gününə təsadüf etdiyindən, 2018-ci ilin sentyabr ayı və 3-cü rübü üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 22.10.2018-ci il tarixinə keçirilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

## Malayziya xarici borcların ödənilməsi üçün yollar axtarır

Baş nazir Mahathir Məhəmməd ölkənin xarici borclarının silinməsi üçün vergi sistemində dəyişiklik ediləcəyini bildirmişdir. Sabiq Baş nazir Nəcip Rezakın zamanında ölkənin xarici borclarının təxminən 252 milyard dollara çatdığını bildirən Mahathir: «Xarici borcun ödənilməsinə şərait yaratmaq üçün vergilərdə dəyişikliyə gedə bilərik. Bundan əlavə, torpaq sahələri kimi dövlətə aid mülklərin satışı da mümkün ola bilər», - demişdir.

Maliyyə naziri Lim Quan Enq keçmiş hökumətin başlatdığı layihələrin dayandırılması məsələsinə toxunaraq qeyd etmişdir ki, həmin layihələrin davam etdirilməsi dəlilik olardı.

Malayziya hökuməti keçən ay əsas prioritetin ölkənin borcdan çıxarılması olduğunu, buna görə də əsas hissəsini Çinin maliyyələşdirdiyi 3 milyard dollarlıq boru xətti layihəsini ləğv etdiyini açıqlamışdı.

Ölkənin xarici borclarının silinməsi üçün Malayziya xalqı da öz töhfəsini əsirgəmir. Xarici borcların ödənilməsi üçün açılmış «Ümid fondu»na dörd ayda 48 milyard dollar vəsait yığıldığı bildirilmişdir. May ayında Nazirlər Kabinetinin yığıncağına ilk dəfə rəhbərlik edən Muhathir Məhəmməd nazirlərin maaşının 10 faiz azaldılması ilə bağlı qərar çıxardığı barədə açıqlama vermişdi.

## Latviya ilə İsveçrə arasında vergi sazişinə dair yeni protokol imzalanıb

İsveçrə hökumətinin yaydığı açıqlamada bildirilmişdir ki, Latviya hökuməti ilə 2002-ci ildə imzalanmış vergi sazişi ilə bağlı protokol qəbul edilmişdir və sənəd 2019-cu il yanvarın 1-dən qüvvəyə minəcək.

İsveçrə ilə Latviya arasında 16 il əvvəl imzalanmış vergi sazişi ilə bağlı yeni protokolda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) vergi bazasının yuyulmasına və gəlirlərin yerinin dəyişdirilməsinə qarşı mübarizə layihəsi (BEPS) çərçivəsində vergi sazişlərindən sui-istifadə hallarının aradan qaldırılması əsas hədəf kimi əlavə edilmişdir. Bundan başqa, protokolda arbitraj haqqında yeni maddə də vardır.

Açılmada göstərilmişdir ki, İsveçrə ilə Latviya arasındakı vergi sazişi ilə bağlı qəbul edilmiş protokola əsasən, ən azı 10 faizlik payı olan şirkətlərə verilmiş dividendlərin 5 faizi məbləğində qalıq vergi ləğv edilir; royalti üçün 10 faizlik qalıq vergi 5 faizə endirilir; şirkətlərə başqa şirkətlər tərəfindən ödənilən royalti isə yalnız o halda vergiyə cəlb edilə bilər ki, benefisiar sahibin ölkədə daimi yaşayış statusu olsun.

## Türkiyədə siqaret əleyhinə kampaniya genişləndirilir

Türkiyə Səhiyyə Nazirliyinin və «Sağlıq-Sen» Strateji Araşdırmalar Mərkəzi İnstitutunun birgə təşkil etdikləri dördüncü «Xalq səhiyyəsi günləri simpoziumunda» «Asılılıqla mübarizə» devizi altında panel iclası keçirilmişdir. Tədbirin moderatoru, Tibb Elmləri Universitetinin rektoru professor Cevdet Erdöl tütünü insan sağlamlığı baxımından əsrin fəlakəti kimi qiymətləndirərək demişdir: «Heç bir kütləvi qırğın silahı bəşəriyyətə tütün qədər ziyan vurmamışdır. Tütün epidemiyası əsrimizin başına bəla olmuşdur».

Tibb Elmləri Universitetinin dosenti Toker Ergüder isə diqqəti Türkiyədə siqaret çəkənlərin sayının artdığına yönəltmişdir. Tütün məhsullarına qoyulan verginin artırılmasından sonra siqaretə tələbatda ciddi azalma baş verdiyinə diqqəti yönəldən T.Ergüder: «İstənilən ölkədə ağciyər xərçənginin qarşısının alınması üçün Maliyyə Nazirliyinin fəaliyyəti də Səhiyyə Nazirliyi qədər mühümdür», - demişdir.

Alim siqaret çəkənlərin sayının azaldılması üçün qiymətlərin və vergi tənzimləməsinin çox təsirli olduğunu, qiymətlərin 10 faiz artırılması nəticəsində siqaret istehlakının da 10 faiz azaldığını bildirmişdir. ABŞ və İngiltərə kimi inkişaf etmiş ölkələrdə son vaxtlar siqaret çəkənlərin sayında ciddi azalma olduğunu bildirən Ergüder Türkiyədə kişilərin 40 faizinin siqaret çəkdiyini vurğulamışdır.

Ergüder Türkiyədə 2002-2008-ci illər arasında siqaret çəkənlərin sayının azalması tendensiyasının qorunmadığını qeyd edərək, siqaretə meyil edənlərin sayının artmasının qarşısını almaq üçün vergi tətbiq etməyin, siqaret qutularının üstündən reklam şəkillərinin götürülməsinin, eləcə də «tüstüsüz hava» kampaniyasının əhəmiyyətli olacağını bildirmişdir.

## Qazaxıstanda vergi amnistiyası elan edilib

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev ölkə əhalisinə ənənəvi müraciətində demişdir: «2019-cu il yanvarın 1-dən kiçik və orta biznes üçün vergi amnistiyasını həyata keçirməyə başlanmalı, penya və cərimələr ləğv edilməlidir, bu şərtlə ki, şirkətlər əsas vergi məbləğini tam ödəmiş olsunlar».

Dövlət başçısının sözlərinə görə, kölgə iqtisadiyyatı ilə mübarizədə yalnız repressiya metodlarına əsaslanmaq olmaz, belə bir addımın atılması isə biznesi stimullaşdıra bilər: «İqtisadiyyatdakı gizli dövriyyənin qarşıdakı üç il ərzində ən azı 40 faiz azaldılması üçün təsirli addımların atılması zəruridir». Bu zaman iş adamlarını qeyri-qanuni təzyiqlərdən və hədələrdən də qorumaq lazımdır. «Qorxudaraq rüşvət alan» məmurlarla bağlı Nazarbayev cinayət işi açılması ilə bağlı göstəriş vermişdir.

## Rusiyada özüməşğul şəxslərlə bağlı qanun qəbul ediləcək



Dövlət Dumasının Vergilər komitəsinin sədri Andrey Makarov bildirmişdir ki, ilin sonuna qədər belə bir qanunun qəbul edilməsi gözlənilir: «Biz maksimum sadə mexanizm təklif edəcəyik, heç bir hesabata ehtiyac olmayacaq, bu cür məsələlər telefonla həll ediləcək». Bildirilmişdir ki, əmək qabiliyyətli rusiyalıların sayı 82 milyon olsa da, işləyən kimi qeydiyyata duranların sayı 52 milyondur. «Qalan 30 milyon gəlir əldə edir, lakin bu gəlir heç yerdə qeydiyyata alınmır və həmin şəxslər vergi ödəmirlər», - Makarov qeyd etmişdir.

Bundan əvvəl Dövlət Dumasına Rusiyada peşəkar fəaliyyətdən gələn gəlirlərə vergi tətbiq edilməsi barədə qanun layihəsi paketi təqdim olunmuşdu. 2019-cu ilin yanvarından 2028-ci ilin sonuna qədər davam edəcək eksperiment Moskvada, Moskva və Kaluqa vilayətlərində, eləcə də Tatarıstan Respublikasında keçiriləcək.

## Polşa büdcəsi 93 milyon avro itirib

Ölkədə fəaliyyət göstərən Vergilər İnstitutunun hesabatı 2008-2015-ci illəri əhatə edir. Hesabata əsasən, bu məbləğin yarıdan çoxu - 58,3 avro büdcəyə köçürülməmiş ƏDV-dir. 23,5-35 milyard avro ödənilməmiş aksizlərin, 4,66 milyard avro isə qumar oyunları ilə bağlı ödənilməmiş vergilərin payına düşür.

Polşa Seyminin Maliyyə komitəsinin sədr müavini Yanuş Şevçak bildirmişdir ki, bu hesabat fəaliyyətsizliyə qarşı ittihamdır. Onun sözlərinə görə, həmin məbləğ Polşanın xəzinəsinə daxil olsaydı, ölkədəki sosial işçilərin və hüquq-mühafizə orqanları əməkdaşlarının maaşlarının artırılması ilə bağlı heç bir problem olmazdı.

## Rəqəmsal sektorun tənzimlənməsi mövzusunda beynəlxalq konfrans

Avropa İttifaqı (Aİ) Komissiyasının rəqəmsal iqtisadiyyat və ictimaiyyət üzrə komissarı Mariya Qabriel rəqəmsal sahədə baş verən sürətli dəyişmələrin özü ilə müxtəlif problemlər gətirdiyinə diqqəti çəkmişdir.

Avstriyanın paytaxtı Vyana şəhərində təşkil edilmiş «Avropada rəqəmsal sahədə məzmun istehsalı» mövzusuna həsr edilmiş konfransda Aİ-də rəqəmsal sahədə məzmun istehsalı, müəllif hüquqları və sosial media ilə bağlı yeni qanun tənzimləmələri kimi mövzular müzakirə edilmişdir.

Konfransda çıxış edən komissar Mariya Qabriel mədəniyyət və medianın Avropanın təməl dəyərləri arasında yer aldığını bildirərək, rəqəmsal sahədə irəliləyişlərin olduğunun əhəmiyyətini vurğulamışdır. O, mediya və mədəniyyət sahəsində rəqəmsallaşmanın çox sürətlə inkişaf etdiyini göstərərək bu sahədə təcili olaraq hüquqi tənzimləmələrin həyata keçirilməsinin zəruri olduğunu bildirmişdir.

Komissiyanın müəllif hüquqları sahəsində həyata keçirdiyi yeni normativ-hüquqi tənzimləmələrin rəqəmsal sahədə ədalətli rəqabəti təmin edəcəyini bildirən Qabriel diqqəti tənzimləmələr çərçivəsində yenilikçi və zəngin məzmunlu onlayn platformaların meydana gəlməsinin hədəfdə olduğuna yönəltmişdir.

O, rəhbərlik etdiyi komissiyanın video və audio sahələrində də hüquqi addımlar atılması üçün cəhd göstərdiyini qeyd etmişdir: «Komissiya Aİ daxilində video və audio sahəsindəki qanunları yenidən tənzimləmək istəyir».

Rəqəmsal sahədə baş verən sürətli inkişaf barədə, xüsusi olaraq da sosial medianın təsiri ilə az qala hər kəsin bir növ «jurnalistlik missiyası» ilə hərəkət etdiyini vurğulayan Qabriel qeyd etmişdir ki, sosial mediadan pis məqsədlər üçün istifadə edilməsinin və səhv məlumatların yayılmasının qarşısının alınması üçün düzgün təhlükəsizlik mexanizmlərinin həyata keçirilməsinə ehtiyac var. O, azad mətbuat, sənət və rəqəmsal iqtisadiyyatın qorunması üçün düzgün üsullardan istifadə edilməsinin komissiyanın hədəfləri arasında yer aldığını bildirmişdir: «Bununla əlaqədar olaraq iqtisadi dəstəyin göstərilməsi əhəmiyyətlidir. Komissiya 2021-2027 illər üzrə Aİ büdcəsində yalnız bu sahə üçün 1,85 milyard avroluq dəstəyin göstərilməsi barədə təklif irəli sürmüşdür».

Avstriyanın Aİ, media və mədəniyyət naziri Gernot Blümel də ənənəvi media qurumları və beynəlxalq sahədə güclü təsirə malik rəqəmsal platformalar arasında rəqabət baxımından qeyri-simmetrik bir vəziyyət olduğunu qeyd etmişdir. O, Facebook və Google kimi rəqəmsal platformaların beynəlxalq miqyasda zəngin mündəricatlı paylaşımlar etdiyini və bunun qarşılığı olaraq az məbləğdə vergi ödədiyini vurğulayaraq, belə bir vəziyyətin rəqabətin qarşısını aldığını bildirmişdir.

Rəqəmsal mediada müəllif hüququ ilə əlaqədar mühüm addımlar atıldığını deyən Blümel Avstriyanın Aİ-yə rəhbərlik etdiyi müddətdə bu istiqamətdə irəliyə doğru daha qəti addımlar atılması üçün səy göstərdiklərini vurğulamışdır.

krossvord



**Yuxarıdan aşağı:** 1.Saz havası; 2.Respublikamızda keçiriləcək beynəlxalq yarış; 3.Şumerdə ən qədim şəhərlərdən biri; 4.Tuamotu (Fransa Polineziyası) arxipelaqında atoll; 5.Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) loqotipində əks olunan məməli heyvan növü; 6.Təqvimdə ilin ilk ayı; 9.Məşhur avtomobil markasının azərbaycanca deyiliş forması; 13.Üzərində vaqon, vaqonet və s. təkərlərinin hərəkət etdiyi polad yol; 15.Böyük Britaniyada fəxri titul; 16.Qədim türk dilində vergi və mükəlləfiyyətdən azad olunmuş rəiyyət; 17.Qazax rayonunda çay. Kürün sağ qolu; 18.Qədim yunan mifologiyasında titan tanrı; 20.Rusiya Federasiyasının Xabarovsk vilayətində çay; 21.Üst paltar üçün naxışlı yun parça materialı. **Soldan sağa:** 1.İşıq mənbəyindən çıxan şüaları əks etdirən cihaz; 5.Bir neçə adam arasında bölünən şeydən hər birinə düşən hissə; 7.Türkiyədə gündəlik ictimai-siyasi qəzet; 8.Monqolustanın şimal-şərqindən keçən çay; 10.Sakit okeanda ada dövlət; 11.Qərаib dənizinin cənub-şərqində ada; 12.Qədim Misir mifologiyasında hamilə qadınların və körpələrin himayəçisi; 14.Fransa rəssamı, postimpressionizm və primitivizm cərəyanının nümayəndəsi; 19.Yunan mifologiyasında işıq, kəhanət, şeir və musiqi tanrısı. Həmçinin ABŞ-da NASA tərəfindən həyata keçirilmiş Aya uçuş layihəsinin və kosmik aparatın adı; 21.Türkiyədə şəhər; 22.Saç boyamaq üçün bitki yarpaqlarından hazırlanan toz; 23.Ordubad rayonu ərazisində dağ; 24.İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) nəzdində Nüvə Enerjisi Agentliyinin qısaldılmış adı; 25.Var-dövlət hesabına nüfuz və hakimiyyət əldə edən şəxs.



*Qəraib dənizinin cənub-şərqində ada*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kompas; 2.Münster; 3.Duala; 4.Adidas; 5.Tarif; 6.Dekabr; 9.Trio; 13.Arzu; 15.Belqrad; 16. Ədalət *(Şükürov)*; 17.Artrit; 18.Katana; 20.Alver; 21. Kübra *(Əliyeva)*. **Soldan sağa:** 1.Komediant; 5.Tad; 7.Mandarin; 8.Ərik; 10.Astra; 11.Aerofob; 12.Priap; 14.Torba; 19.Drayzer *(Teodor)*; 21.Kalka; 22.Lava; 23.Probirka; 24.Tar; 25.Şotlandka.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

idman

# Azərbaycan-Malta: ikinci heç-heçə

## Qrup birincisi, çox güman ki, Kosovoda müəyyən ediləcək

**Futbol üzrə Azərbaycan millisi oktyabrın 14-də UEFA Millətlər Liqasının qrup mərhələsi çərçivəsində növbəti oyununu keçirib. D liqasının 3-cü qrupunda yer alan komandamız doğma meydanda - Bakı Olimpiya Stadionunda Malta yığmasını qəbul edib.**



Xorvatiyalı baş hakim İvan Bebekin idarə etdiyi oyuna Azərbaycan millisi fəal başlayıb. Matçın 4-cü dəqiqəsində millimizin üzvləri rəqib qapısına ardıcıl iki zərbə vursalar da, Malta yığmasının qapıçısı Endryu Hoqq qapısını toxunulmaz saxlamağı bacarıb. Matçın 19-cu dəqiqəsində Rüfət Dadaşovun zərbəsi rəqib qapısından keçib, lakin yan xətt hakimi futbolçumuzun oyundankənar vəziyyətdə olduğunu bildirib.

Görüşün 37-ci dəqiqəsində maltalı futbolçular hesabı açıblar: Rouen Muskat komandasını hesabda önə çıxarıb. Birinci hissəsinin sonunadək hesab dəyişməyib. Qarşılaşmanın 53-cü dəqiqəsində Azərbaycan millisi hesabı bərabərləşdirib. Mahir Mədətovun ötürməsini Araz Abdullayev baxımlı qolla tamamlayıb və bu, oyunda vurulan sonuncu qol olub. Beləliklə, Azərbaycan-Malta oyununda qalib müəyyənləşməyib - 1:1. Qrupun digər oyununda isə Farer Adaları yığması Kosovo millisini qəbul edib və görüş 1:1 hesabı ilə başa çatıb. Dörd turdan sonra Qurban Qurbanovun yetirmələri 6 xalla qrupda ikinci pillədə qərarlaşıblar. Kosovo 8 xalla birinci, Farer Adaları 4 xalla üçüncü, Malta isə 2 xalla sonuncu yerdədir. Millimiz növbəti oyununu noyabrın 17-də Bakıda Farer Adaları yığmasına qarşı keçirəcək.

Hadisələrin gedişatı onu deməyə əsas verir ki, qrup birincisi Kosovoda yerli komanda ilə Azərbaycan arasında keçiriləcək qarşılaşmadan sonra müəyyən ediləcək.

Xatırladaq ki, sentyabrın 7-də Bakıda Kosovo seçməsi ilə heç-heçə (0:0) edən Azərbaycan yığması üç gün sonra Malta səfərindən bir xalla qayıdıb - 1:1. Komandamız oktyabrın 11-də səfərdə Farer Adaları yığmasının qapısından üç cavabsız top keçirib.

# Atasının oğlu...



Əfsanəvi pilot, «Formula-1»in yeddiqat çempionu Mixael Şumaxerin oğlu Mik vaxtından əvvəl Avropa «Formula-3» yarışlarının çempionu titulunu qazanıb. 19 yaşlı Mik Şumaxer yarışların Hokkenhaym mərhələsinin ikinci yürüşünü ikinci yerdə başa vuraraq ən yaxın izləyicisi Den Tiktuma üçün əlçatmaz olub. Bu mövsümdə o, «Formula-3»də səkkiz yürüşü udub.

Xatırladaq ki, Mikin atası Mixael Şumaxer 2013-cü ildə xizək sürərkən başından aldığı ağır zədədən sonra müalicəsini davam etdirir. Buna görə də gənc pilotu dəstəkləmək üçün Hokkenhayma onun anası gəlib.

# Yeniyetmə güləşçimiz Olimpiya çempionudur

Azərbaycan güləşçisi Turan Bayramov Argentinanın paytaxtı Buenos-Ayresdə təşkil olunan Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında qızıl medal qazanıb. Olimpiadada 65 kiloqram çəki dərəcəsində mübarizə aparan sərbəst güləşçimiz «A» qrupunda yarışıb.



Dünya və Avropa çempionu ilk görüşdə Yeni Zelandiya təmsilçisi Tahi Pehi Eynsli Uesterlini elə ilk hissədə çətinlik çəkmədən məğlub edib. İdmançımız Pakistan güləşçisi İnayət Ullaha da rahatlıqla qalib gəlib və «A» qrupunda birinci yeri tutub. Olimpiadanın finalına vəsiqə qazanan güləşçimiz qızıl medal uğrunda görüşdə «B» qrupunun qalibi olan iranlı pəhləvan Məhəmməd Baqi Kərimiseyfabad ilə qarşılaşıb. Rəqibini məğlub edən T.Bayramov Olimpiya çempionu olub.

Hazırda Azərbaycan millisinin hesabında 2 qızıl, 1 gümüş və 2 bürünc medal var. Komandamıza ilk qızıl medalı Olimpiadada 66 kiloqram çəki dərəcəsində çıxış edən cüdoçumuz Vüqar Talıbov qazandırıb. Ağır atletimiz Tarmenxan Babayev (85 kq) gümüş, taekvondoçumuz Cavad Ağayev (63 kq) və güləşçimiz Şahanə Nəzərova (43 kq) bürünc medala sahib olublar. Bədii gimnastımız Yelizaveta Luzanın komanda yarışlarında qazandığı qızıl medal isə qarışıq yığmaların hesabına yazılıb.

# Dünya kuboku yarışları Bakıda...

Son illər ölkəmizdə müxtəlif beynəlxalq idman turnirlərinin, Avropa və dünya çempionatlarının keçirilməsi artıq ənənə halını alıb. Azərbaycan Gimnastika Federasiyasının gimnastikanın daha bir növü üzrə beynəlxalq turnirə ev sahibliyi etməyə hazırlaşması da bu baxımdan təqdirəlayiqdir. Noyabrın 17-18-də Milli Gimnastika Arenasında gimnastikanın ən maraqlı və həyəcanlı növlərindən biri olan akrobatika üzrə Bakıda ilk dəfə olaraq Dünya kuboku yarışları təşkil olunacaq.

İki gün davam edəcək turnirdə 2003-cü il təvəllüdlü və daha böyük gimnastlar kişi cütlüyü, qadın cütlüyü, qarışıq cütlük, qadın qrupu və kişi qrupu tərkibində mübarizə aparacaqlar. İlkin sifarişə əsasən, Azərbaycan akrobatları ilə yanaşı, Belarus, İsrail, Qazaxıstan, Portuqaliya, Rusiya və Ukrayna komandaları turnirdə iştirak etmək üçün qeydiyyatdan keçiblər. Yarışlarda ölkəmizi son Avropa çempionatının bürünc medalçıları: qarışıq cütlüklərimiz Abdulla Əl-Məşayxi - Ruhidil Qurbanlı və Ağasif Rəhimov-Nurcan Cabbarlı təmsil edəcəklər. Kişi cütlükləri proqramında isə Dünya Yaş Qrupu Yarışlarının gümüş medalçıları Seymur Cəfərov-Murad Əkbərov mübarizə aparacaqlar. Turnirdə ən yüksək icra xalını toplamış cütlüklər və qruplara ənənəvi «AGF Trophy» Kuboku da təqdim olunacaq.

mozaika

iqlim

# NASA: Yer kürəsində «Kiçik buz dövrü» təkrarlana bilər



ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi (NASA) iqlimə dair aparılan yeni araşdırmalarla bağlı hesabat yayıb. Hesabatda Yer kürəsinin gələcək taleyi ilə əlaqədar həyəcan doğuran məqamlar öz əksini tapıb.

Tədqiqatın nəticələrinə görə, XVIII əsrdə baş vermiş «Kiçik buz dövrü» yenidən yaşana bilər. NASA mütəxəssisləri bu qənaətə Günəş ləkələri və Yer kürəsinin ən üst təbəqəsi olan termosferdə apardıqları araşdırmaların nəticələrinə əsasən gəliblər. Belə ki, termosfer qatının soyuyaraq daraldığı, günəş ləkələrinin isə ən aşağı hərəkətlilikdə olduğu müəyyənləşib. Müxtəlif dövrlərdə azalıb çoxalan bu ləkələr iqlimə təsir edir. Termosfer qatı hərəkətlilik çox olanda isinir, azalanda isə soyuyur. NASA alimləri belə bir fakta üç əsr əvvəl rast gəlindiyini və o dövrün tarixə «Kiçik buz dövrü» kimi keçdiyini deyiblər. Əgər vəziyyət belə davam edərsə, bir neçə ay ərzində rekord soyuqlar müşahidə olunacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin İqlim Dəyişmələri və Ozon Mərkəzinin direktoru Gülmalı Süleymanov bildirib ki, indidən qış fəslinin necə keçəcəyi haqqında fikir bildirmək mümkün deyil: «Hər il qışın şaxtalı keçəcəyi ilə bağlı məlumatlar yayılır. Fəslin necə keçəcəyi ilə əlaqədar müəyyən ehtimallar ola bilər, lakin noyabrın sonunadək dəqiq açıqlama vermək düzgün deyil. Belə ki, dünyanın dörd böyük iqlim mərkəzi aparılan araşdırmaların nəticəsini birgə müzakirə edib yekun məlumatı məhz noyabrın sonlarında açıqlayacaq. «Kiçik buz dövrü» ilə bağlı informasiya isə absurddur. Azərbaycanda kəskin soyuqların olacağı gözlənilmir».

Ekoloq Məhərrəm Mehdiyev isə NASA alimləri ilə digər mütəxəssislərin bu barədə müxtəlif fikirlər yürütdüyünü deyib: «Bu il yanvar-fevral aylarında havaların elə də soyuq keçmədiyini nəzərə alaraq, qarşıdan gələn qışın nisbətən sərt olacağı ehtimal edilə bilər. Lakin üç ay ərzində şaxtalı günlərin olacağı ilə bağlı proqnozlar inandırıcı deyil. NASA alimlərindən fərqli olaraq, Rusiya, Türkiyə mütəxəssisləri qış fəslinin mülayim keçəcəyini deyiblər. Rusiya iqlimşünasları dekabr-fevral aylarında orta aylıq hərarətin -4° ilə -8° arasında dəyişəcəyini proqnozlaşdırırlar. Azərbaycana gəlincə isə, bəzi bölgələrdə ola bilər bir neçə gün temperatur -10°-nu ötsün, lakin bu il havanın çox sərt keçəcəyi gözlənilmir».

şəbəkə

# Yeni nəsil «Wi-Fi 6» təqdim olunub

«Wi-Fi Alliance» təşkilatı «Wi-Fi 6» adını alacaq yeni simsiz rabitəni təqdim edib. İndiyədək «Wi-Fi» texnologiyasının müxtəlif standartları «802.11n» və «802.11ac» kimi adlarla qeyd edilirdi. Lakin adi istehlakçılar üçün belə sxem əlverişli deyil, çünki bu, dolaşıqlığa səbəb ola bilər. Buna görə də «Wi-Fi» texnologiyasının müxtəlif standartlarının adlarının sadələşdirilməsi haqqında qərar qəbul edilib.




Artıq Ì802.11nÌ texnologiyası «Wi-Fi 4», «802.11ac» texnologiyası «Wi-Fi 5», «802.11ax» texnologiyası isə «Wi-Fi 6» adlandırılacaq.

«802.11ac» ilə müqayisədə 30 faiz daha yüksək rabitə sürəti təklif edən Ì802.11axÌ standartı 2019-cu ildə təsdiq ediləcək. O, yüklənmiş efir şəraitində simsiz şəbəkənin işinin effektivliyini yaxşılaşdırmağa və «802.11ac Wave-2» standartı ilə müqayisədə keçirmə qabiliyyətini iki dəfə artırmağa imkan verəcək.

tarix

# Pompey əhalisi necə həlak olub...

Bir qrup italiyalı arxeoloq Vezuvi vulkanı (eramızın 79-cu ilində) nəticəsində həlak olanların qalıqlarını tədqiq edib və müəyyənləşdirib ki, həmin vaxt insanların çoxunun başı bədənindən ayrılıb. Alimlərin tədqiqatı «Plos One» elmi jurnalında dərc edilib.



Vezuvi vulkanının püskürməsi nəticəsində qədim Romanın Pompey, Herkulanum və Stabiy şəhərləri iki gün ərzində dağılıb. Alimlər Herkulanum şəhərində həlak olanların sümüklərini tədqiq edərək ölümün bir andaca baş verdiyi qənaətinə gəliblər. Onlar insan sümük və kəllələrində qırmızı və qara rəngli mineral çöküntü tapıblar. Maddənin kimyəvi analizi onda çoxlu dəmir və oksidlərin olduğunu göstərib.

Alimlərin fikrincə, bu tapıntı fəlakətə uğramış insanların qanının qaynayaraq dərhal buxara çevrilməsinə dəlalət edir. Alimlər, həmçinin qeyd ediblər ki, şəhər sakinləri temperaturu 200-500 dərəcəli lavadan xilas olmağa çalışsalar da, bu, mümkün olmayıb.

kosmos

# Asteroidə daha bir robot göndərilib

MASCOT - robot-tədqiqatçı Yaponiyanın «Hayabusa-2» zondundan ayrılıb və Yer planetindən 280 milyon kilometr məsafədə yerləşən Ryuqu asteroidinə doğru irəliləyib. Fransa və Almaniya alimlərinin birgə hazırladığı kiçik robot kub formasında olub, təqribən 10 kiloqram ağırlığındadır. Robot geniş kamera, asteroid süxurunu tədqiq etmək üçün mikroskop, habelə temperaturu və maqnit sahəsini ölçmək üçün cihazla təchiz olunub.



Xatırladaq ki, bu il sentyabrın sonunda Yaponiya Fəza Tədqiqatları Agentliyinin Ryuqu asteroidinə göndərdiyi iki robot-tədqiqatçı daş relyefin fotoşəkillərini çəkiblər. MASCOT Ryuqunun digər hissəsində tədqiqat aparmalıdır ki, sonra yapon mütəxəssislər «Hayabusa-2» zondunun enişini dəqiq müəyyənləşdirsinlər.

Yer və Mars arasında yerləşən Ryuqunun diametri təxminən 900 metrdir. «Hayabusa-2» zondu asteroidə 2014-cü ilin sonunda Yaponiyanın Taneqaşima adasındakı kosmodromdan göndərilib. Alimlər asteroiddə su və üzvi maddələr tapmağa ümid bəsləyirlər ki, bu da kainatda həyatın yayılması sirrini açmağa kömək edəcək. Bu nəzəriyyəni təsdiq və ya təkzib etmək məqsədilə zond asteroidə üç dəfə eniş etməli və 2020-ci ildə Yerə qayıtmalıdır.

«Hayabusa-2» zondunun kütləsi təxminən 600 kiloqramdır və bundan əvvəlki «Sokol» zondunun modifikasiya edilmiş təsirini bağışlayır. Həmin zond 2003-cü ildə Yerdən 336,5 milyon kilometr məsafədə yerləşən İtokava asteroidinə getmişdi. Zond yeddi il ərzində 6 milyard kilometr məsafə qət edib. Bu, eyni zamanda, bəşəriyyət tarixində ən davamlı səyahət olub.

**Müdriklər deyib ki...**



***«Yaşlı adam üçün gəncliyində var gücünü qocalmayan işlərə həsr etdiyini dərk etməkdən gözəl təsəlli ola bilməz».***

***Artur Şopenhauer (1788-1860)***